RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 2 (8318) CÜMƏ AXŞAMI, 9 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ 2020-ci il "Könüllülər ili"dir




# Hər kəsin dostu

## "Könüllü DOST" proqramı ölkədə ümummilli hərəkata mühüm töhfədir

**Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ölkəmizdə artıq ümummilli hərəkata və xüsusən gənclərimizin həyat tərzinə çevrilən könüllülük fəaliyyətinin daha geniş miqyas almasına təkan verir.**

Dövlət başçısının 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) də dövlət sosial xidmətlərində vətəndaş məmnuniyyətinə doğru keyfiyyətcə yeni mərhələ açmaqla yanaşı, "Könüllü DOST" proqramı ilə ölkədə bu hərəkatın güclənməsində mühüm rol oynamaqdadır.

2019-cu ilin may ayında DOST Agentliyinin və 1 saylı DOST mərkəzinin açılışı zamanı dövlət başçısı çıxışında bildirmişdir: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

### DOST - "bir pəncərə"dən göstərilən tam şəffaf və operativ xidmətlər

Öncədən qeyd edək ki, DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ təqdimat üzərindən, vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və sadə prosedurlar əsasında göstərilməsinə xidmət edir. 2019-cu ilin may ayında fəaliyyətə başlayan 1 saylı DOST mərkəzində gün ərzində təxminən 400-450 nəfər vətəndaş müraciəti qeydə alınır. Burada vətəndaşlara "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 növdə xidmət göstərilir. Bakının Yasamal və Səbail rayonlarının əhalisinə xidmət göstərən bu mərkəzdən artıq 65 min nəfərədək ölkə vətəndaşı faydalanıb. Daha diqqətçəkən məqam isə ondan ibarətdir ki, DOST xidmətlərindən məmnunluq səviyyəsi 95 faiz üzərindədir.

Ötən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Bakının Xəzər rayonunda 2 saylı DOST mərkəzinin açılışı olub. Bu DOST mərkəzi də gün ərzində 250-300 vətəndaşı qəbul etmək imkanına malikdir. Bakının Xəzər və Pirallahı rayonlarının əhalisi üçün nəzərdə tutulan bu mərkəz il ərzində 70 mindən artıq vətəndaşa xidmət edəcək. Burada da "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", həmçinin "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" də var.

Beləliklə, bu mərkəz də vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"yə müraciət edib və "bir pəncərə"dən faydalanmasına imkan verir.

Xatırladaq ki, hər iki DOST mərkəzində "Könüllü DOST" proqramı üzrə könüllülər fəaliyyət göstərir. Ümumilikdə iki mərkəzdə 80 nəfər könüllü müraciət edən vətəndaşlara öz töhfəsini verir.

### DOST könüllüləri işlərini bacarıqla və böyük həvəslə yerinə yetirirlər

1 saylı DOST mərkəzinə daxil olduqda ilk növbədə diqqəti çəkən məqam vətəndaşlara operativ və keyfiyyətli xidmət üçün səfərbər olmuş DOST könüllülərinin fəaliyyətidir. Könüllülər burada vətəndaşların qarşılanması və xidmət pəncərələrinə yönləndirilməsi, insan axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, elektron sistemlərdən istifadə, xidmət üzrə sənədlərin siyahısı ilə tanış edilməsi, müxtəlif anket, forma və s. doldurulmasında köməklik, əlillərə xüsusi diqqət və qayğı göstərilməsi, rəy sorğularının keçirilməsi və digər işləri bacarıqla və həm də böyük həvəslə yerinə yetirirlər. Ümumi işin təşkilində, vətəndaşların gülərüz qarşılanması və yola salınmasında onların əməyi böyükdür.

Burada fəaliyyət göstərən könüllülərin əksəriyyəti əsasən tələbələrdən ibarətdir. Onlar növbəlilik əsasında gün ərzində 3 saat xidmət göstərir, iki ayın yekununda isə məzun olurlar. Bundan sonra mərkəzə yeni könüllülərin seçimi başlayır.

*Ardı 4-cü səh.*

◆ İlin uğurlu yekunları

## Milli maraqları layiqincə təmin edən siyasət

### Prezident İlham Əliyevin ötən il etdiyi xarici səfərlər səmərəli olub






2019-cu il Azərbaycan üçün xarici siyasət prioritetlərinin həyata keçirilməsi baxımından növbəti uğurlu dövr oldu. Belə ki, ötən il ərzində həyata keçirilən effektiv xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq əlaqələrini daha da möhkəmləndirdi və genişləndirdi.

Həmçinin regional və qlobal miqyasda ölkəmizin milli maraqlarının təmin edilməsi istiqamətində qətiyyətli addımlar atıldı.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin ötən il ərzində dünya ölkələrinə etdiyi səfərlərin miqyası Azərbaycanın xarici siyasətinin kifayət qədər uğurlu, düşünülmüş və çoxşaxəli olduğunu, dövlətimizin və xalqımızın maraqlarına layiqincə xidmət etdiyini göstərir. Hər bir səfər Azərbaycanın ayrı-ayrı dövlətlərlə və təşkilatlarla ikitərəfli və çoxtərəfli əlaqələrinin genişlənməsinə təkan verdi.

*Ardı 3-cü səh.*

## Azərbaycan bütün sahələrdə Rusiya ilə əməkdaşlığa xüsusi önəm verir

### 2019-cu il iki ölkə arasındakı münasibətlərin tarixinə ən fəal və dinamik dövr kimi yazıldı

Aparılan uğurlu islahatlar, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlər ölkəmizin beynəlxalq aləmdə nüfuzunu xeyli artırıb. Bunun nəticəsidir ki, xarici kütləvi informasiya vasitələrinin Azərbaycana olan marağı da yüksəlib.

Xüsusilə şimal qonşumuz olan Rusiyanın kütləvi informasiya vasitələri ölkəmiz barədə müntəzəm yazılar dərc edir, verilişlər verir. "Rossiya-24" televiziya kanalının Prezident İlham Əliyevdən hər ilin sonunda geniş müsahibə götürməsi də bu maraqdan irəli gəlir.

Dövlət başçısı adıçəkilən kanala növbəti müsahibəsində iki ölkə arasındakı iqtisadi və siyasi münasibətləri yüksək qiymətləndirib. Qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında ticarət, nəqliyyat, energetika, humanitar və turizm sahələrində geniş əlaqələr mövcuddur. Sənaye sahəsində olan əlaqələr isə daha yüksəkdir və ötən il bu sahədə mühüm nailiyyətlər əldə edilib.

*Ardı 6-cı səh.*

## Uğurlarımız düşünülmüş siyasətin təzahürüdür

### Prezident İlham ƏLİYEV: "Mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

**Tarixə qovuşan 2019-cu il yaddaşlarda bir çox mühüm hadisələrlə qaldı. Ən başlıcası dərin islahatlar, o cümlədən sosial və iqtisadi sahədə həyata keçirilən islahatlar ili oldu. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrikində bunlar bir daha vurğulandı.**

Azərbaycan xalqı 2020-ci ilə xoş əhvali-ruhiyyə, böyük inam və ümidlərlə qədəm qoydu. Bu hisslər əlbəttə ki, dövlətin apardığı məqsədyönlü və uğurlu sosial-iqtisadi siyasətdən, ötən illərdə qazanılan nailiyyətlərdən qaynaqlanır. Keçən il də iqtisadiyyatda, o cümlədən qeyri-neft sektorunda irəliləyişlərə nail olundu. Aqrar sahədə bol məhsul yetişdirildi. Valyuta ehtiyatlarımız artdı.

Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında Azərbaycan donor ölkəyə çevrilib, indi borc alan ölkə deyil, borc verən ölkədir. Prezidentin qeyd etdiyi kimi, bütün bunlar düşünülmüş siyasətin təzahürüdür.

Nailiyyətlərimiz imkan verir ki, sosial sahəyə daha böyük həcmdə vəsait ayrılsın: "Bu il də bu baxımdan çox yaddaqalan il olmuşdur. Çox geniş, hərtərəfli sosial paket təqdim edildi və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etdi. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 100 faiz, yəni 2 dəfə artmışdır. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz artmışdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz bu gün MDB məkanında birinci yerdəyik. Bizim sosial siyasətimiz bir daha onu göstərir və mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Məcburi köçkünlərin problemlərinin həllinə yönəldilən tədbirlər, o cümlədən il ərzində 5 mindən çox məcburi köçkün ailəsi üçün evlərin, yaxud mənzillərin tikilməsi bunu bir daha təsdiq edir. 800-ə yaxın şəhid ailəsi üçün ev və mənzillərin inşa edilməsi, zəlzələdən zərər çəkmiş Şamaxı, İsmayıllı, Ağsu rayonlarının sakinləri üçün minlərlə yeni evin tikilib təhvil verilməsi də bu qəbildən olan faktlardır. Bunlar Azərbaycan dövlətinin həm gücünü, həm də daim öz vətəndaşının yanında olduğunu göstərən əyani misallardır.

Keçən il ölkəmizə 3 milyondan çox turistin gəlməsi də önəmli faktdır. Bu, qeyri-neft sektorunun inkişafını təsdiqləməklə yanaşı, həm də ölkəmizə olan dərin rəğbətin göstəricisidir. 3 milyondan çox turist Azərbaycanın bu sahədə qazandığı rekorddur.

*Ardı 6-cı səh.*

## İcbari tibbi sığorta mərhələli şəkildə tətbiq olunacaqdır

Son illərdə dünyada xəstəliklərin və bu xəstəliklərdən ölənlərin sayı artmaqdadır. Yalnız 2015-ci ildə dünyada 56,4 milyon nəfər müxtəlif xəstəliklər səbəbindən dünyasını dəyişmişdir.

Dünya Bankının məlumatlarına əsasən, hər həftə xəstəlikdən 200 min 5 yaşına çatmamış uşaq dünyasını dəyişir, 10 min qadın isə doğuş vaxtı ölür. Ümumdünya Səhiyyə Təşkilatının statistik məlumatlarına görə, hər il 7 milyon nəfər ekoloji çirklənmədən dünyasını dəyişir. Proqnozlara görə, 2030-2050-ci illər arasında iqlim dəyişikliyi dünyada 250 min xəstəliyin yaranmasına gətirib çıxaracaqdır. Qeyd olunanlar səhiyyə sisteminin rolunun getdikcə artacağını xəbər verir. Səhiyyə sisteminin səmərəli fəaliyyəti isə onun maliyyələşməsindən birbaşa asılıdır. Dünyada səhiyyənin maliyyələşməsinin mütərəqqi metodlarından biri icbari tibbi sığortadır.

2020-ci ilin yanvarın 1-dən ölkəmizdə də mərhələli şəkildə icbari tibbi sığorta tətbiq olunacaqdır. İcbari tibbi sığorta əhalinin sosial müdafiəsinin gücləndirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. İcbari tibbi sığorta əhalinin həmrəylik prinsipi əsasında tibbi yardım almaq hüququnu təmin edən sistemdir.

*Ardı 4-cü səh.*

# Dövlət başçısının təşəbbüsü və böyük dəstəyi ilə şəhərsalma sahəsində ciddi islahatlar həyata keçirilir

## Prezident İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Mən sizi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin edirəm. Siz hazırda sədrin birinci müavini vəzifəsində çalışırsınız. Bu, sizə göstərilən böyük etimad və sizin üçün böyük məsuliyyətdir. Çünki mənim tapşırığımla Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin funksiyaları genişləndirilib. Hazırda bu komitənin şəhərsalma və memarlıq prinsiplərini müasir əsaslarla təşkil etmək üçün xüsusi rolu və əhəmiyyəti vardır.

Bakı çar Rusiyası dövründə və sovet dövründə sənaye şəhəri kimi formalaşıb. Təbii ki, sənayenin genişmiqyaslı inkişafı şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsir göstərmişdir. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidənqurma və abadlıq işlərinə start verildi. Vəzifə ondan ibarət idi ki, biz Bakını parklar və bağlar şəhərinə çevirək və buna nail oluruq. Bu gün həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır. Biz, ilk növbədə, Bibiheybət buxtasının yaşıllaşdırılması, neft gölməçələrinin qurudulması və təmizlənməsi məsələsinə diqqət yetirdik. Vaxtilə ekoloji fəlakət mənzərəsini əks etdirən Bibiheybət buxtası indi yaşıllıq, park zonasıdır. Orada idman şəhərciyi, o cümlədən Su İdmanı Sarayı, digər idman və istirahət infrastrukturu yaradılıbdır.

Balaxanı zibilxanası digər tərəfdən şəhərimizin havasını çirkləndirirdi. Onilliklər ərzində biz bu acı reallıqla üz-üzə qalmışdıq. Orada yandırılan zibilin tüstüsü bütün şəhərimizin səmasını zəhər kimi bürüyürdü. Biz oranı da təmizlədik, müasir zibilyandırma zavodu, poliqon tikilibdir. Çoxdandır ki, orada məişət tullantılarının çeşidlənməsi prosesi təşkil edilib və artıq bu zona ekoloji təmiz zonaya çevrilib. O əraziyə bitişik olan Böyükşor gölünün təmizlənməsi layihəsi də çox böyük əhəmiyyət daşıyır. Ora da vaxtilə ekoloji fəlakət zonası idi. Çünki sovet vaxtında oraya həm kanalizasiya, həm də lay suları axıdılırdı, eyni zamanda, oradan açıq səma altında neft anbarı kimi istifadə olunurdu. Böyükşor gölünün birinci hissəsinin təmizlənməsi hesab edirəm ki, şəhər üçün tarixi hadisədir. Hazırda orada bir kilometr uzunluğunda bulvar salınıb və gölə quşlar da qonurlar. Bu da onu göstərir ki, təmizlik tam təmin edilibdir. Mən digər sahələri də sadalaya bilərəm, onlardan biri də Qara şəhərdir. İndi bəzilərinin yadından çıxır ki, biz maşınla o yerdən keçəndə pəncərələri bağlayırdıq. Çünki tüstüdən, iydən dayanmaq mümkün deyildi. Biz Qara şəhəri Ağ şəhərə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai zonalar yaradılır. Qara şəhəri ləğv edib onun yerində ekoloji təmiz Ağ şəhər yaratmaq bizim növbəti tarixi xidmətimizdir.

“Sovetski” adlandırılan ərazidə yaşayış çox ağır idi. Yəni bir-birinin içində olan köhnə daxma tipli tikililər həm ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi, həm də orada yaşayan insanlar və nəqliyyat üçün böyük problem yaradırdı. Yolların eni 2-3 metr idi. Biz böyük işlər görərək oradan da vətəndaşları kompensasiya əsasında köçürdük. Bəzilərinə yeni evlər verildi, bəzilərinə pul təminatı. İndi orada fəaliyyət göstərən Mərkəzi Park dünya miqyasında ən gözəl parklardan biridir. Bütün bunlar görülən işlərin bir hissəsini təşkil edir. Bütün işləri sadalamaq üçün günlərlə vaxt lazımdır. Görülən işlər onu sübut edir ki, Bakı şəhərinin inkişafına, havasının təmizlənməsinə və nəticə etibarilə, vətəndaşların rahat yaşamasına nə qədər böyük diqqət göstərilir. İndi Bakı bulvarı 15 kilometr uzunluğunda gözəl bir Milli parkdır. Vaxtilə uzunluğu cəmi 3 kilometr idi. Orada yerləşən sıradan çıxmış və yarıdağılmış tikililər söküldü, insanlar üçün şərait yaradıldı. Ona görə Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətində, ilk növbədə, bu amillər nəzərə alınmalıdır. Vətəndaşların rahatlığı, ekoloji cəhətdən təmiz layihələrin icrası və şəhərsalma qaydalarına tam riayət edilməsi əsas prinsiplər olmalıdır.



Əfsuslar olsun ki, əvvəlki dövrlərdə şəhərsalma qaydaları bəzi hallarda kobudcasına pozulurdu. Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan yöndəmsiz və eybəcər binalar tikilirdi. O binalar elə tikilirdi ki, həm ümumi mənzərəyə ziyan vururdu, həm də orada heç bir şəhərsalma əmsalı nəzərdə tutulmurdu. Son vaxtlar mənim göstərişimlə, xüsusilə Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyinin dəyişilməsi nəticəsində artıq bu qaydalara riayət edilməyə başlanmışdır. Bunu iş adamları da nəzərə almalıdırlar. Bakı şəhəri bizim tarixi sərvətimizdir. Biz imkan verə bilmərik ki, hansısa bir təmənnaya, hansısa bir hərisliyə görə şəhərimizin keçmişini məhv edək, yaxud da şəhərimizin gələcəyini şübhə altına qoyaq. Qətiyyən bu, olmayacaqdır. Bütün biznes dairələri, inşaatla məşğul olan bütün şirkətlər bilsinlər ki, bundan sonra harada gəldi bina, ev tikmək praktikasına artıq son qoyulubdur. Bütün evlər, binalar şəhərsalma qaydalarına, Bakının memarlıq obrazına uyğun şəkildə tikilməlidir. Ona görə bu məsələyə çox böyük diqqət yetirmək lazımdır. Bakı şəhəri bundan sonra ancaq Baş Plan əsasında inkişaf etməlidir. Baş Plana uyğun olmayan heç bir bina Bakıda tikilməməlidir. Komitəyə yeni funksiyalar verilib və komitənin razılığı olmadan heç bir bina tikilə bilməz. Rayon icra hakimiyyəti orqanları komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməzlər. Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qruplarınız olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq.

Əlbəttə, digər böyük şəhərlərimizdə də buna oxşar proseslər getməlidir, o cümlədən Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərinin və digər şəhərlərimizin Baş Planı tərtib edilməlidir. Çünki əhalimiz artır, iqtisadi fəallıq, sənaye artır və artmalıdır. Ona görə növbəti illərdə çox düşünülmüş addımlar atılmalıdır. Biz son illərdə 3200-dən çox məktəb tikmişik. Ancaq hələ də məktəblər var ki, orada uşaqlar üç növbədə oxuyurlar. Nəyə görə? Çünki əhali artır. Müstəqillik dövründə əhali üç milyon artıb. İndi bəzi yerlərdə yeni məktəb tikintisi üçün yer tapa bilmirlər. Ona görə mən tapşırıq vermişəm və aidiyyəti qurumlar bu işlərlə çox ciddi məşğuldurlar, xüsusilə Abşeron rayonunda - orada böyük problemlər var. Üç növbədə oxuyan uşaqlar var. İndi yeni məktəblər üçün yer axtarırıq və bu da çox ciddi bir prosesdir. Yəni artan əhali bütün infrastruktura artan yük deməkdir - həm nəqliyyata, həm sosial infrastruktura, həm də ictimai zonaların fəaliyyətinə. Ona görə siz işləri Baş Plan əsasında qurarkən mütləq perspektivi də nəzərdə saxlamalısınız, çünki əhalimiz bundan sonra da artacaq. Artımın da əsas səbəbi iqtisadi inkişafdır. İqtisadi inkişaf olmayan yerlərdə nadir hallarda əhali artır. Amma bizim iqtisadi inkişafımız bundan sonra da dayanıqlı olacaq. Ona görə bütün bu işlər bəri başdan hesablanmalıdır.

Nəqliyyat infrastrukturuna xüsusi diqqət verilməlidir. Son illər ərzində köçürülmələr aparılan bir çox yerlərdə müasir nəqliyyat qovşaqları yaradılır, küçələr genişləndirilir. Yenə də keçmişdə “Sovetski” adlandırılan əraziyə qayıdıram, orada küçələrin eni iki metrdən çox deyildi. İndi geniş xiyabanlar salmışıq. İndi yol hərəkəti nə qədər yüngülləşib. Nəqliyyat infrastrukturu təkcə avtomobil yollarından ibarət deyil. İndi bizim şəhərətrafı dəmir yolu nəqliyyatı yeni mərhələyə qədəm qoyur. Bu il artıq dairəvi hərəkət marşrutu da işə düşəcək. Bu da, əlbəttə, avtomobil yollarına düşən yükü azaldacaq. Ona görə şəhərsalma qaydaları, nəqliyyat infrastrukturu, digər kommunikasiyalar, memarlıq prinsipləri, Bakı şəhərinə uyğun memarlıq üslubunun qorunması, ekoloji vəziyyətin yaxşılaşdırılması və digər amillər daim diqqət mərkəzində olmalıdır.

Bir daha demək istəyirəm ki, Bakı şəhəri bizim milli sərvətimizdir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunun iki səbəbi var. Birincisi, şəhərin quruluşu, şəhərdə mövcud olan gözəl tarixi-memarlıq abidələri, o cümlədən İçəri şəhər, şəhərimizin Xəzər dənizinin kənarında yerləşməsi. Bu abidələr əsrlər boyu mövcud idi. Ancaq indi bəziləri unudur ki, onların əvvəlki görkəmi necə idi. Qapqara qaralmış, yarıdağılmış, baxımsız, rəngi solmuş binalar və illər boyu o binaların divarlarına hopmuş çöküntülər onların əsl simasını gizlədirdi. Biz bütün təmir işlərini çox böyük ustalıqla, binaların tarixi görünüşünə xələl gətirmədən aparmışıq. Bu, birinci amildir ki, biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişik və tarixi abidələrimizi bərpa etmişik. İkinci amil müasir binalardır. Bunlar da memarlıq abidələridir. Məsələn, Heydər Əliyev Mərkəzi ən mötəbər mətbu orqanların birində dərc edilən hesabatda dünyanın ən gözəl 10 binasının arasında yer alıb. Mənim fikrimcə, bu, dünyanın ən gözəl binasıdır. Biz təkcə Heydər Əliyev Mərkəzinin timsalında nəinki müasir Bakımızın, Azərbaycanımızın rəmzini görürük. “Alov qüllələri”, “Crystall Hall”, Xalça Muzeyi, ofis binaları - bütün bunlar Bakının müasir memarlığını təcəssüm etdirir. Əsas vəzifəmiz, - mən bu vəzifəni çox ciddi qoymuşdum, - ondan ibarət idi ki, biz keçmişlə müasirliyin vəhdətini təşkil etməliyik.

Bəzi tarixi şəhərlərdə müasir binalar o şəhərlərin simasını korlayır, tarixlə tamamilə uzlaşmır. Amma bizim müasir binalarımız elə gözəl memarlıq üslubunda və elə yerlərdə inşa edilib ki, tarixlə uzlaşır. Məsələn, qədim İçəri şəhərdən çıxıb yolu keçərək müasir bulvara qədəm qoyan hər bir insan sanki keçmişdən bugünə səyahət edir. Yenə də deyirəm, bu, nadir bir mənzərədir. Şəhər inkişaf etməlidir, böyüməlidir, ancaq çox ciddi şəhərsalma prinsipləri əsasında. İndi tikintidə mövcud olan əmsallar gözlənilməlidir və bu əmsallar pozulmamalıdır.

Bir müddət bundan öncə ziyalılarla görüşdə Memarlar İttifaqının sədri təklif vermişdi ki, Bakının mərkəzi rayonu formalaşsın. Mən Bakı Şəhər İcra Hakimiyyətinə müvafiq göstərişlər vermişəm. Sizə də tapşırıram, Bakı Şəhər İcra Hakimiyyəti, Memarlar İttifaqı yığışın birlikdə təklifləri konkretləşdirin. Çünki bunun üstündən artıq uzun müddət keçib, ancaq hələ ki, mənə heç bir təklif verilməyib. Mən prinsip etibarilə bu təklifi dəstəkləyirəm. Çünki belə olan halda mərkəzi rayonda bu rayona uyğun xüsusi mühafizə tədbirləri görülə bilər və memarlıq abidələrimizə diqqət daha da yüksək ola bilər. O ki qaldı yeni binaların tikintisinə, burada qaydalar daha da sərt olmalıdır.

Bir daha demək istəyirəm ki, komitənin funksiyaları genişlənir. Mən komitənin son vaxtlardakı fəaliyyətini yüksək qiymətləndirirəm. Sizin bu vəzifəyə təyin olunmağınızda bu amil əsas rol oynayır. Siz bu məsuliyyəti dərk etməlisiniz. Ölkəmizin hər bir yerində bütün inşaat işləri müasir şəhərsalma qaydalarına uyğun aparılmalıdır.

❖ ❖ ❖

**Anar QULİYEV:** Möhtərəm cənab Prezident, ilk növbədə, göstərdiyiniz bu yüksək etimada görə dərin təşəkkürümü bildirirəm. Sizin bu qərarınızı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivinin hər bir üzvünün ötən müddət ərzində əməyinə verdiyiniz yüksək qiymət kimi qəbul edirəm. Mənim üçün isə bu, olduqca böyük şərəf və eyni zamanda daha da böyük məsuliyyətdir.

Sizi əmin edirəm ki, göstərdiyiniz etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Verəcəyiniz göstərişləri yerinə yetirmək üçün komitənin bütün potensialını səfərbər etməyə çalışacağam.

Cənab Prezident, son müddət ərzində Sizin təşəbbüsünüz və böyük dəstəyinizlə ölkəmizdə şəhərsalma sahəsində ciddi islahatlar həyata keçirilir. Qəbul etdiyiniz qərarlara, verdiyiniz tapşırıq və göstərişlərə uyğun olaraq, institusional dəyişiklik, quruculuq işləri aparılır. Mütərəqqi beynəlxalq təcrübə öyrənilərək tətbiq edilir, dövlət idarəçiliyinin səmərəliliyi artırılır, yeni şəhərsalma layihələri icra olunur.

Şəhərsalma fəaliyyətinin təşkili Sizin hər zaman xüsusi diqqət mərkəzində saxladığınız məsələlərdən biridir. Şəhərsalma proseslərinin planlı, sistemli, qanunvericiliyin tələblərinə uyğun təşkili komitə qarşısında qoyduğunuz başlıca vəzifələrdəndir. Həmkarlarımla birgə gündəlik işimizdə bu prinsipləri rəhbər tutmağa çalışırıq.

Mənə göstərdiyiniz bu yüksək etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Öz növbəmdə, rəhbərliyinizlə Azərbaycan Respublikasının şəhərsalma qanunvericiliyinə uyğun olaraq, paytaxt Bakı və digər şəhərlərimizdə rahat, sağlam, təhlükəsiz həyat şəraitinin təmin olunması üçün əlimdən gələni əsirgəməyəcəyimə, komitənin bu məqsədlə aidiyyəti dövlət qurumları ilə səmərəli əməkdaşlığını davam etdirəcəyinə söz verirəm.

**Prezident İlham ƏLİYEV:** Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və dediyim bu prinsiplərə gündəlik işdə əməl edəcəksiniz.

---

### A.A.Quliyevin Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Adil oğlu Quliyev Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2020-ci il*

### A.A.Quliyevin Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Adil oğlu Quliyev Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2020-ci il*

### İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə

Hörmətli cənab Prezident!

Tehran şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2020-ci il*

### Ukraynanın Prezidenti zati-aliləri cənab Vladimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Tehran şəhəri yaxınlığında Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2020-ci il*

### Azərbaycanın Baş Naziri Əli Əsədov İranın Birinci vitse-prezidentinə və Ukraynanın Baş Nazirinə başsağlığı verib

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov İran İslam Respublikasının Birinci vitse-prezidenti İshaq Cahangiriyə və Ukraynanın Baş Naziri Aleksey Qonçaruka başsağlığı məktubu göndərib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazir Əli Əsədov Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin Tehran yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərinin onu olduqca kədərləndirdiyini bildirib.

Azərbaycanın Baş Naziri bu faciə ilə əlaqədar İranın Birinci vitse-prezidentinə və Ukraynanın Baş Nazirinə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

### İtaliyanın xəbər portalı “İlham Əliyev - müasir Azərbaycanın Prezidenti” sərlövhəli məqalə dərc edib

İtaliyanın nüfuzlu “Eurasiaticanews.altervista.org” portalında “European News Agency” agentliyinin müxbiri Karlo Marinonun “İlham Əliyev - müasir Azərbaycanın Prezidenti” başlıqlı yazısı dərc olunub.




AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanovun “İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident” sərlövhəli məqaləsinə istinadla yazılmış materialda Azərbaycan Prezidentinin həyat və fəaliyyəti, onun rəhbərliyi ilə qazanılmış uğurlar geniş təhlil edilib.

Məqalədə deyilir: “Prezident İlham Əliyev əlbəttə ki, inkişaf etmiş Azərbaycan dövlətinin yaradıcısı kimi tarixə düşüb. Bu gün dünya İlham Əliyevi islahatçı Prezident kimi tanıyır və qəbul edir. Dünya Bankının “Doing Business 2020” hesabatında Azərbaycan islahatları həyata keçirən ən yaxşı 20 ölkə arasında yer alır. Davos Dünya İqtisadi Forumunun hesabatında isə uzunmüddətli hökumət strategiyası baxımından Azərbaycan 10-cu, islahatlara diqqət baxımından 5-ci yerdədir. Bütün bunlar isə Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir”.

İlin uğurlu yekunları








# Milli maraqları layiqincə təmin edən siyasət

## Prezident İlham Əliyevin ötən il etdiyi xarici səfərlər səmərəli olub







*Əvvəli 1-ci səh.*

### İlham Əliyevin Davos səfəri həmişə maraq doğurub

Azərbaycan Prezidentinin ötən il ilk xarici səfəri İsveçrə Konfederasiyasına olub. Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 21-23-də bu ölkəyə işgüzar səfər edən Prezident İlham Əliyev çoxsaylı görüşlər keçirib. İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerlə görüş iki ölkə arasındakı əlaqələrin perspektivi baxımından xüsusi əhəmiyyət kəsb edib. Görüşdə Azərbaycanla İsveçrə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Ueli Maurer bildirib ki, İsveçrə iş adamları Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitdən çox razıdırlar. Onlar ölkəmizdə iqtisadi inkişaf və biznes imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradıldığını qeyd edirlər.

Prezident İlham Əliyev Azərbaycanda infrastruktur sahəsində görülən işlərdən danışıb, respublikamızın beynəlxalq daşımalarda çox mühüm tranzit ölkəyə çevrildiyini deyib. Dəmir yolu ilə yüklərin artıq Asiyadan Avropaya Azərbaycan ərazisindən daşınmasına başlandığını qeyd edən Prezident İlham Əliyev İsveçrədə istehsal olunan qatarların Azərbaycanda dəmir yolunun yenilənməsinə və inkişafına töhfə verdiyini vurğulayıb, bu sahədə əməkdaşlığın uğurla davam etdiyini bildirib. Qeyd olunub ki, Azərbaycanla İsveçrə arasında hava əlaqəsinin açılması da əməkdaşlığın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Görüşdə, həmçinin SOCAR-ın İsveçrəyə investisiya qoymasının əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Cənab İlham Əliyev bildirib ki, Azərbaycan daha çox İsveçrə şirkətinin investor qismində cəlb olunmasında maraqlıdır. Dövlətimizin başçısı İsveçrə şirkətlərinin Azərbaycan ilə fəal əməkdaşlığı gələcəkdə də davam etdirəcəklərinə əminliyini ifadə edib. Prezident Ueli Maurer isə Azərbaycanla iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün İsveçrə tərəfinin də konkret addımların atılmasında maraqlı olduğunu deyib. Bu baxımdan söhbət zamanı qarşılıqlı ticarətin genişləndirilməsinin vacibliyi qeyd olunub.

Davosda Prezident İlham Əliyev Gürcüstanın ovaxtkı Baş Naziri Mamuka Baxtadze ilə də görüşüb. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Ölkələrimizin həyata keçirdiyi mühüm qlobal layihələrin əhəmiyyəti qeyd edilib, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

Dünya İqtisadi Forumu çərçivəsində Prezident İlham Əliyevlə Ermənistanın baş naziri arasında qeyri-rəsmi görüş baş tutub. Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesinin cari vəziyyəti müzakirə edilib.

Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti Borge Brende, "Visa" şirkətinin prezidenti Rayan MakInerni, BP qrupunun baş icraçı direktoru Robert Dadli, "CISCO" şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri Gerri Elliott, "SAP SE" şirkətinin baş icraçı direktoru Bill MakDermot, Dünya Bankının baş icraçı direktoru Kristalina Georgiyeva, "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov, Fransanın "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyanne, "Microsoft" şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van Der Bel, "Signify" şirkətinin (keçmiş "Philips Lightning") baş icraçı direktoru Erik Rondolat, "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel, "The Boston Consulting Group" şirkətinin prezidenti və baş direktoru Riç Lesser, "Lazard Freres" şirkətinin baş icraçı direktoru Metyu Piqas, "VTB-Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin, "Suez Group" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Gebali, "Equinor" (keçmiş "Statoil") şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşləri ölkəmizin ikitərəfli əlaqələrinin inkişafı, dünyanın tanınmış şirkətlərinin Azərbaycanla əməkdaşlığı baxımından səmərəli olub.

Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya da keçirilib. Sessiyada iştirak edən İlham Əliyev sualları cavablandırıb, Azərbaycanda gedən inkişaf prosesləri, ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərindəki iştirakı və digər məsələlər barədə məlumat verib.

Martın 28-30-da Prezident İlham Əliyev Avstriya Respublikasına səfər edib. Vyanada İlham Əliyev Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts, Federal Prezidenti Aleksander Van der Bellen və digər rəsmi şəxslərlə görüşüb. Görüşlərdə Azərbaycan-Avstriya münasibətlərinin, o cümlədən siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi, bu səfərin əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Həmçinin Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd edilib. Aparılan danışıqlarda Azərbaycan-Avropa İttifaqı əlaqələrindən də bəhs edilib, Avstriyanın bu münasibətlərin inkişafını dəstəklədiyi ifadə olunub. Bildirilib ki, məhz Avstriyanın sədrliyi dövründə Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb. Eyni zamanda Avstriya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın vacibliyi vurğulanaraq Avstriya şirkətlərinin Azərbaycanın regionda yaratdığı nəqliyyat infrastrukturundan faydalana biləcəyi bildirilib.

Martın 29-da Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Təkbətək görüşdən sonra danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam edib.

### Azərbaycan Avrasiyada əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir

Prezident İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Forumunda iştirak etmək üçün aprelin 24-27-də Pekində işgüzar səfərdə olub. Məlumdur ki, 2013-cü ildə ÇXR Sədri Si Cinpin tərəfindən "Bir kəmər, bir yol" təşəbbüsü irəli sürülüb. Tarixi İpək yolunu yenidən canlandırmağa, həmçinin yolun keçdiyi ölkələr ilə əməkdaşlıq sahələrini artırmağa xidmət edən bu təşəbbüs Avrasiyanın inkişafında yeni mərhələnin başlanğıcı da hesab edilir. Çünki ekspertlərin fikrincə, iqtisadi, ticari, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu layihənin reallaşması qədim İpək yolu üzərində yeni dəyərlərin formalaşmasına dəstək verəcək, qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaldacaq, beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına, regional inkişafa ciddi təkan verəcək. "Bir kəmər, bir yol" layihəsi həm də ölkələr arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığı əhatə edəcək. Hazırda "Bir kəmər, bir yol" təşəbbüsü təxminən 150 ölkə tərəfindən dəstəklənir.

Bu layihəyə bir neçə istiqamət daxildir ki, onlardan biri də Çindən başlayıb Mərkəzi Asiya respublikalarından, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Cənubi Avropaya uzanır. Bu baxımdan Azərbaycanın həyata keçirdiyi nəqliyyat layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi Çində böyük maraqla qarşılanıb və təqdir olunur. Təsadüfi deyil ki, Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumuna Cənubi Qafqazdan yalnız Prezident İlham Əliyev dəvət almışdı. Forumdakı çıxışı zamanı cənab İlham Əliyev ölkəmizin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəklədiyini bəyan etmişdi: *"Azərbaycan lap əvvəldən Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyib. Bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır".*

Bütövlükdə Çinin "Bir kəmər və bir yol" təşəbbüsü çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialından istifadə olunması ölkələr arasında iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit və s. sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır. Belə ki, Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edilməsi səmərəli olmaqla yanaşı, ölkələrimiz arasında əməkdaşlığa önəmli töhfə verəcək.

Bu səfər həm də Azərbaycan-Çin münasibətlərinin gələcək inkişafı baxımından əhəmiyyət kəsb edib. Prezident İlham Əliyevin ÇXR Sədri Si Cinpinlə görüşündə bu barədə ətraflı söz açılıb. "Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Siz həm də "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərdən birisiniz. Sizin ölkəniz Böyük İpək yolu üzərində yerləşir və bu yolun bərpasında təbii tərəfdaşdır. Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram", - deyə Si Cinpin bildirib.

Si Cinpin, həmçinin, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin uğurlu daxili və xarici siyasət həyata keçirdiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu qeyd edib. Çin rəhbəri ölkəsinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev də Azərbaycanın "Vahid Çin" siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı Çinin bütün sahələrdə əldə etdiyi böyük uğurlarla bağlı təbriklərini çatdırıb. Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq mühafizə orqanları arasında və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

Prezident İlham Əliyevin Çin səfərinin ən maraqlı məqamlarından biri də Pekində Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi görüş oldu. "Bir kəmər, bir yol" Beynəlxalq Forumunda iştirak edən iki liderin bu görüşü bir daha Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verdi.

Söhbət zamanı dövlət başçıları mütəmadi olaraq keçirilən görüşlərin əhəmiyyətindən söz açıblar. Vladimir Putin həm fikir mübadiləsi aparmaq, həm mövqeləri müqayisə etmək, həm də birgə işi təshih etmək imkanı baxımından mütəmadi keçirilən belə görüşlərin əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyev də görüşlərin münasibətlərin inkişafına çox ciddi təkan verdiyini qeyd edib: "Bizim görüşlərimiz münasibətlərimizin inkişafına çox ciddi təkan verir. Biz müntəzəm olaraq görüşürük və əlbəttə ki, bütün sahələrdə əməkdaşlığın, qarşılıqlı fəaliyyətin çox mühüm məsələlərini həll edirik. Münasibətlərimizin inkişafından çox məmnunuq. Onlar bütün sahələri əhatə edir və fəal siyasi dialoq aparılır. Biz əmtəə dövriyyəsinin artmasını müşahidə edirik".

Pekində Prezident İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yan, "ZTE" Korporasiyasının sədri Li Cisue, "CETC" Korporasiyasının baş direktoru Vu Mançin, "Huawei" şirkətinin sədri Lian Xua, "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy və "China Poly Group" Korporasiyasının sədri Su Nianşa ilə də görüşüb.

Mayın 13-də Belçika Krallığına işgüzar səfər edən Prezident İlham Əliyev həmin gün Kral Filip ilə görüşüb. Görüşdə Azərbaycan-Belçika ikitərəfli münasibətləri, regiondakı vəziyyət və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Cənab İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunulub, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub və Prezident İlham Əliyevin Belçikaya səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsinə töhfə verəcəyi bildirilib.

Həmin gün Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla da görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Ölkəmizin Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu qeyd edən Donald Tusk Azərbaycanın regiondakı rolunun Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, Azərbaycanla Aİ arasında münasibətlər çox uğurla inkişaf edir və ölkəmiz bu əlaqələrin genişlənməsinə böyük önəm verir.

Görüşdə ötən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyəti vurğulanıb, həmçinin tərəflər arasında üzərində danışıqlar aparılan tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi aparılıb.

### Qarabağ Azərbaycandır və nida işarəsi

Oktyabrın 2-4-də Prezident İlham Əliyev Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasında işgüzar səfərdə olub. Səfər zamanı İlham Əliyev Vladimir Putinlə görüşüb, həmçinin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak edib. Bu səfər Azərbaycanla Rusiya arasındakı münasibətlərin mehriban qonşuluq və dostluq prinsiplərinə söykənərək inkişaf etdiyini göstərdi. Ən əsası bir daha təsdiq olundu ki, bu münasibətlər həm də strateji xarakter daşıyır və Azərbaycan Rusiyanın Cənubi Qafqazda ən mühüm siyasi-iqtisadi tərəfdaşıdır. Azərbaycan Prezidentinin səfərinə münasibət bildirən rusiyalı politoloqlar da iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini və strateji xarakter daşıdığını vurğuladılar.

Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında iştirakı isə ilin mühüm siyasi hadisəsi kimi tarixə düşdü. Çünki bu iclasda Ermənistana növbəti tutarlı diplomatik zərbə vuruldu. Çıxışı zamanı Prezident İlham Əliyev diqqəti Dağlıq-Qarabağ münaqişəsinə yönəltdi və dünyanın maraqla izlədiyi bu forumdan bir daha Qarabağın Azərbaycan torpağı olduğunu və Paşinyanın avqustun əvvəlində söylədiyi sözlərin yalan olduğunu bəyan etdi: "Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Oktyabrın 10-11-də isə Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana səfər edib. Aşqabadda cənab İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov və Moldova Prezidenti İqor Dodon ilə görüşüb.

Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışı isə Ermənistana vurulan növbəti dəfə diplomatik zərbə oldu. Belə ki, nitqində Azərbaycan Prezidenti diqqəti Njde ləqəbi ilə tanınan və alman faşistlərinə xidmət edən Qaregin Ter-Arutyunyana Ermənistanda abidə qoyulmasına yönəldərək, bu ölkədə faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəslənildiyini nəzərə çarpdırdı.

### Tarixi gün

Noyabrın 30-da Türkiyə Respublikasına səfər edən Prezident İlham Əliyev TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirak edib. TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi, ilk növbədə, onu təsdiqlədi ki, vaxtilə Ulu Öndər Heydər Əliyevin başlatdığı və bu gün İlham Əliyevin layiqincə davam etdirdiyi Azərbaycanın enerji siyasəti perspektiv hədəflərinə doğru irəliləyir. Eyni zamanda bütün dünya bir daha gördü ki, bir vaxtlar Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini işə salmağa müvəffəq olan respublikamız daha qlobal təşəbbüsləri də uğurla başa çatdırmağa qadirdir.

Beləliklə, ötən il noyabrın 30-da respublikamızın enerji siyasəti tarixinin növbəti parlaq səhifəsi yazıldı. Prezident İlham Əliyev TANAP-ın Avropaya birləşdirildiyi günü tarixi hadisə adlandıraraq deyib: "Bu gün tarixi gündür. Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir".

Həmin gün prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin, TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin önəmi qeyd edildi. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bundan sonra da daim möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.

Ötən il Prezident İlham Əliyev son xarici səfərini Rusiya Federasiyasına edib. Dövlət başçısı Rusiya Prezidentinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 20-də Sankt-Peterburq şəhərinə səfər edib. Həmin gün MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən Prezident İlham Əliyev, həmçinin Sankt-Peterburq şəhərində diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşüb.

Bütövlükdə ötən il ərzində Prezident İlham Əliyev 7 ölkəyə (İsveçrə, Çin, Türkiyə, Avstriya, Rusiya, Belçika, Türkmənistan) 8 dəfə səfər edib. Bu səfərlər zamanı keçirilən görüşlər göstərir ki, Azərbaycanın xarici siyasəti çoxşaxəli və müstəqildir. Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan dünya birliyindəki mövqeyini möhkəmləndirib. İndi ölkəmiz qlobal məsələlərdə söz sahibi kimi çıxış edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

◆ 2020-ci il "Könüllülər ili"dir



# Hər kəsin dostu

Əvvəli 1-ci səh.

## "DOST ailəsinə qoşulduqdan sonra çox şey əldə etdim..."

DOST mərkəzində ilk həmsöhbətimiz "Gənc DOST" altproqramı çərçivəsində burada könüllü kimi çalışan Aydan Cəfərova oldu. Həmsöhbətimiz DOST ailəsinə qoşulduqdan sonra çox şey əldə etdiyini deyir: "Tələbə olaraq şəxsi bacarıqlarımı inkişaf etdirmək üçün könüllü proqramlarına qoşulmaq istəyirdim. Bu istiqamətdə araşdırma apararkən "Könüllü DOST" proqramına rast gəldim. İqtisadiyyat üzrə təhsil alıram. İqtisadiyyatın cəmiyyətin sosial rifahının artırılması ilə bağlı bir elm olduğunu nəzərə alıb, bu ünvana müraciət etməyimin məqsədəuyğun olacağını düşündüm. Elektron müraciət göndərdim, sonra müsahibədə iştirak edərək könüllü oldum..."

A.Cəfərova deyir ki, bu mərkəzdə intensiv bir iş rejimində işləyirlər: "Fikrimcə, könüllü olmağın bizə verdiyi ən önəmli üstünlük kommunikasiya qabiliyyətimizin yüksəlməsidir. Çünki hər gün vətəndaşlarla ünsiyyətdə oluruq. Əlbəttə, bu da bizim gələcək karyeramız üçün çox önəmlidir. Biz vətəndaşlara növbə çeki təqdim edirik. Bundan sonra onları qeydiyyatdan keçdikləri növbələrə uyğun yönləndirmək, mərkəzin xidmətindən məmnunluğuna dair sorğu keçirmək və s. vəzifələri icra edirik. Xidmət fəaliyyətimiz yalnız bunlardan ibarət deyil. Vətəndaşların ərizələrinin yazılmasında da onlara köməklik göstəririk. Məqsədimiz operativ xidmət göstərib, onların məmnunluğuna nail olmaqdır".

## "Sosial iş ixtisası üzrə nəzəri biliklərimi DOST mərkəzində praktiki olaraq tətbiq etdim..."

Vətəndaşlara yardım göstərərək onların məmnunluğuna nail olmağa çalışan gənc könüllülərdən biri Həlimət Rizvanlı artıq 1 saylı DOST mərkəzində təcrübəçi kimi fəaliyyətini davam etdirir. O, DOST-un ilk könüllülərindən biri olub. İxtisası sosial işlə bağlı olduğundan burada könüllü kimi fəaliyyəti onun üçün çox vacib idi. Həlimət ali məktəbdə qazandığı nəzəri bilikləri DOST mərkəzində praktiki yönümdən tətbiq edir: "Mənim könüllülük fəaliyyətim "Master 2" ilə başladı. DOST mərkəzinə müraciət edən vətəndaşların əksəriyyəti sosial cəhətdən həssas, o cümlədən ahıl insanlar, fiziki məhdudiyyətli şəxslər olduğundan onlara xüsusi diqqətlə yanaşmaq lazımdır. Mən də daim bu prinsiplə işlədim. Agentlik tərəfindən bizim üçün davamlı şəkildə təlimlər təşkil olunur, müəyyən tədbirlər keçirilirdi. Qısa müddət ərzində sosial sahə ilə bağlı kifayət qədər bilik əldə etdim. İndi isə burada təcrübəçi kimi işləyirəm. Lakin uğurumun əsası, ilk növbədə, burada könüllü kimi fəaliyyətim oldu. Həqiqətən könüllülük özünü təsdiq etməyə, uğura, karyeraya yol açır".



## "Gümüşü DOST"lar da gənc könüllülərdən geri qalmırlar...

DOST mərkəzində gənclərlə yanaşı, pensiya yaşında olan könüllülər də fəaliyyət göstərirlər. Onlar əsasən qeydiyyat bölməsində vətəndaşları maraqlandıran sualları cavablandırır, onları lazımi istiqamətə yönləndirirlər. DOST Agentliyinin könüllülərlə iş şöbəsinin müdiri Ruslan Mirzəliyev qeyd edir ki, pensiya yaşında olan könüllülər "Gümüşü DOST" altproqramı çərçivəsində fəaliyyət göstərirlər. Onun sözlərinə görə, "Gənc DOST" altproqramı ilə yanaşı, "Gümüşü DOST"a da kifayət qədər maraq var. "Gümüşü DOST"lar da gənc könüllülərdən geri qalmırlar.

R.Mirzəliyev vurğulayır ki, "Könüllü DOST" DOST mərkəzlərində fəaliyyət göstərəcək könüllüləri birləşdirən bir proqramdır: "Biz bu proqram çərçivəsində fərqli layihələr həyata keçiririk. Məsələn, 15-29 yaşlı gənclər üçün "Gənc DOST" altproqramı mövcuddur. Bundan əlavə, "Gümüşü DOST" altproqramı çərçivəsində ahıl insanlar da könüllü kimi DOST mərkəzinə cəlb ediliblər".

## Ölkədə ilk dəfə olmaqla "Virtual DOST" altproqramı işə salınıb

Öyrənirik ki, "Virtual DOST" altproqramı peşəkar mütəxəssislər, ictimai xadimlər, habelə əlilliyi olan şəxslər üçün kompüter, planşet və ya smartfondan istifadə etməklə, ofis və evlərindən könüllü kimi fəaliyyət göstərmək imkanını yaratmaq məqsədi daşıyır: "Bu altproqram çərçivəsində təhsil, təlim, tədqiqat, PR, konsaltinq və s. sahələr üzrə verilən tapşırıqlar onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilir".

Hazırda 1 və 2 saylı DOST mərkəzlərində çalışan 80 könüllünün 5 nəfəri "Gümüşü DOST" altproqramı əsasında komandaya qoşulan 60-75 yaşlı təqaüdçülərdir. Mərkəzdə çalışan könüllüdən 8-i isə fiziki məhdudiyyətli şəxslərdir. Burada onların könüllü kimi rahat fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılıb. Gənclər könüllülük fəaliyyəti ilə həm iş təcrübələrini artırır, həm də əhalinin xüsusi həssas təbəqəsi ilə işləmək bacarığı əldə edirlər.

## "Könüllü DOST"un məzunlarından 17-si artıq DOST mərkəzinin əməkdaşıdır

1 saylı DOST mərkəzində fəaliyyət göstərən könüllülərin əksəriyyəti ali məktəbi sosial işçi ixtisası üzrə bitirənlərdir. Həmin könüllülərə əldə etdikləri bilikləri təcrübədə tətbiq etməyə imkan verilib. Hazırda "Könüllü DOST"un 167 nəfər məzunu var və onlardan 17-si artıq DOST mərkəzinin əməkdaşı kimi fəaliyyətini davam etdirir. Bu tendensiyanın gələcəkdə də davam etdirilməsi vacib bilinir.

Fəaliyyəti müddətində seçilən könüllülərə agentlik tərəfindən müxtəlif vəzifələr təklif olunur. Agentliyin qiymətləndirmə mexanizmi də formalaşıb. Yəni könüllülərin gündəlik fəaliyyətləri qiymətləndirilir. Sonda isə hər dəfə məzun olan könüllüləri 3 komandaya bölməklə, onlara qrup layihəsi təqdim etmək imkanı verilir. Bu layihələr pensiya, əlillik və ya ekoloji sahələri əhatə edə bilər. Onlar öz layihələrini hazırlayıb təqdim edirlər. Çünki bu layihələr onların gələcək qiymətləndirilməsinə böyük təsir göstərir. Bununla bağlı agentliyin 3 səviyyə üzrə sertifikatlarının verilməsi də nəzərdə tutulub.

## DOST mərkəzində könüllü olmaq istəyənlər çoxdur

DOST mərkəzində könüllü kimi çalışmaq üçün müraciət edənlər gündən-günə artmaqdadır. Bütün müraciətlər diqqətlə analiz edilir, hətta könüllü kimi təcrübəsi olmayanlara, müxtəlif ixtisaslarda təhsil alanlara da şans verilir. 6585 nəfər yalnız "Gənc DOST" altproqramı çərçivəsində bu proqrama müraciət edib. Yeni DOST mərkəzləri açıldıqca daha çox gənc bu layihəyə cəlb olunacaq.

Hazırkı vəziyyət nəzərə alınmaqla, müxtəlif vasitələrdən istifadə edilərək ilkin seçim aparılır. Seçim prosesində elektron müraciət formasında bir xana var: gənclər 2-3 cümlə ilə orada nə üçün könüllü olduqlarını izah etməlidirlər. Əsas diqqət yetirilən məqam da elə məhz bu 2-3 cümləlik fikirdir. Yəni bir şəxsin könüllü olmaq üçün hansı motivasiyası var?! Könüllü seçilənlər əsasən sosial sahə üzrə təhsil alan tələbə və məzunlar, könüllü təcrübəsi olan gənclər olsa da, ümumilikdə DOST Agentliyi hər kəsə bu şansı verməyə çalışır. Pensiyaçılara isə elektron müraciətlə bərabər, birbaşa DOST mərkəzinə yaxınlaşıb müvafiq formanı doldurub "Gümüşü könüllü"lük üçün müraciət etmək imkanı yaradılıb.

## "Könüllü DOST" təşkilatının yaradılması planlaşdırılıb

"Könüllü DOST" proqramı çərçivəsində nəzərdə tutulan layihələrdən də söz açmaq yerinə düşər. DOST Agentliyindən bildirdilər ki, könüllülər üçün müxtəlif sahələr üzrə təlimlərin keçirilməsi də planlaşdırılır. Yeni açılan DOST mərkəzləri müxtəlif kateqoriyalara bölünəcəklər. Hər kateqoriyaya uyğun olaraq orada fəaliyyət göstərəcək könüllülərin sayı artıq məlumdur. Hər bir mərkəz üzrə könüllüləri idarə etmək üçün bir məsul şəxs müəyyənləşdiriləcək. O, həmin mərkəzə könüllülərin cəlb olunmasında müsahibələrin keçirilməsi və qiymətləndirilməsində iştirak edəcək.

"Gənc DOST" təşkilatının yaradılması da planlaşdırılan və nəzərdə tutulan məsələlərdəndir. "Gənc DOST" təşkilatı çərçivəsində könüllülərin daha uzun müddətə fəaliyyət göstərməsinə səy göstəriləcək. "Könüllü DOST" proqramının gənclər üçün əhəmiyyəti işgüzar vərdişlər əldə etmək, fərdi inkişaf, asudə vaxtın səmərəli keçirilməsi, yeni dostlar və karyera yolunda ilk uğurlu addımların təməli baxımından faydalıdır. Proqram dövlətçilik və vətənpərvərlik, ictimai-sosial məsuliyyətlilik, birlik və əməkdaşlıq, eləcə də qayğıkeşlik və yardımsevərlik prinsiplərini özündə ehtiva edir.

2019-2025-ci illər üzrə "DOST regional proqramı"na əsasən, Bakıda və respublikanın regionlarında 31 DOST mərkəzinin açılması nəzərdə tutulub. Təbii ki, DOST mərkəzləri şəbəkəsi genişləndikcə onların ölkədə könüllülük hərəkatına töhfələri də artacaq.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*





Səhiyyə

# İcbari tibbi sığorta mərhələli şəkildə tətbiq olunacaqdır

Əvvəli 1-ci səh.

Bu sistem sığorta hadisəsi zamanı sığortaolunanların xidmətlər zərfi çərçivəsində tibbi yardımdan istifadəsinə imkan verir. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, bütün əhali sığortaolunan hesab edilir və xidmətlər zərfində nəzərdə tutulmuş tibbi xidmətlərdən yararlanmaqda bərabər hüquqa malikdir.

İcbari tibbi sığortanın bir sıra üstünlükləri var. İcbari tibbi sığorta səhiyyə sistemində şəffaflığı və tibbi xidmətlərin keyfiyyətini artırır, əhalinin sağlamlığı isə daha etibarlı şəkildə qorunur. Bunlarla yanaşı, əhalinin tibbi xidmətlərə xərclədiyi vəsaitlərin payı azalır və s. Onu da qeyd edim ki, icbari tibbi sığorta sisteminin tətbiqi təkcə vətəndaşların deyil, eyni zamanda tibbi heyətin də sosial müdafiəsini gücləndirəcəkdir. Belə ki, icbari tibbi sığorta sisteminin tətbiqi tibbi personalın əməkhaqlarının artımına gətirib çıxaracaqdır. Tibbi personalın əməkhaqları iki - baza və bonus hissələrindən ibarət olacaqdır. Hansı həkim və ya tibb bacısı daha çox xəstə qəbul edib keyfiyyətli xidmət göstərəcəksə, o daha çox qazanacaqdır. Bu da tibbi personalı bilik və bacarıqlarını artırmağa sövq edəcəkdir və səhiyyə sahəsində orta aylıq əməkhaqqının artmasına gətirib çıxaracaqdır. Hazırda isə səhiyyə sahəsində əməkhaqları ölkə üzrə orta aylıq əməkhaqlarından geri qalır.

Bütün bunlar icbari tibbi sığortaya keçidin nə qədər zəruri olduğunu bir daha sübut edir. Lakin ən mütərəqqi sistemin də tətbiqi zamanı müəyyən problemlər meydana çıxa bilər. Bu problemlərin öyrənilməsi və aradan qaldırılması digər iqtisadi rayonlarda və ya bölgələrdə bu sistemin səmərəli fəaliyyətinə zəmin yaradacaqdır. Odur ki, ölkəmizdə icbari tibbi sığortaya keçidin mərhələli şəkildə, yəni əvvəlcə bir və ya bir neçə iqtisadi rayonda tətbiq olunması onun səmərəli fəaliyyəti baxımından vacibdir. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə vəsaiti ilə reallaşdırdığımız "İcbari tibbi sığorta: üstünlükləri və perspektivləri" layihəsinin icrası zamanı da ölkəmizdə icbari tibbi sığortaya keçidin mərhələli xarakter daşımasının daha səmərəli olacağına bir daha inam yaratdı. Onu da qeyd edək ki, hazırda icbari tibbi sığorta sisteminin çox uğurla fəaliyyət göstərdiyi ölkələrdə də bu mexanizmin tətbiqi mərhələlərlə həyata keçirilmişdir.

## İcbari tibbi sığorta haqları

Milli Məclisin 3 dekabr 2019-cu ildə keçirilən plenar iclasında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilmişdir. Bu dəyişikliklərə əsasən, icbari tibbi sığortanın xidmətlər zərfi vahid toplu şəklində ambulator-poliklinika və stasionar şəraitdə göstərilən tibbi xidmətləri əhatə edəcəkdir. Qanuna görə, 2020-ci ilin yanvar ayının 1-dən etibarən mərhələlərə bölünməklə dövlət büdcəsinin vəsaiti hesabına bütün əhali üzrə təqvim ili üçün adambaşına 90 manat icbari tibbi sığorta haqqı ayrılacaqdır.

Dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaqdır. Əgər vətəndaş aylıq 8500 manat əməkhaqqı alırsa, 8000 manatın 2 faizi, qalan 500 manatın isə 0,5 faizi miqdarında icbari tibbi sığorta haqqı hesablanacaqdır. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən isə aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 1 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaqdır. 2021-ci ildən etibarən isə qeyri-dövlət və qeyri-neft sektoru üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunmuşdur. Mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə aylıq gəlirlərinin 8000 manatadək (8000 manat da daxil olmaqla) olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi miqdarında icbari tibbi sığorta haqqı müəyyənləşdirilmişdir.

Qeyd edək ki, icbari tibbi sığorta tarifləri istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrlə müqayisədə respublikamızda daha az nəzərdə tutulmuşdur. Bu tariflər işçilər və işəgötürənlər üçün müvafiq qaydada qonşu Türkiyədə 5 və 8,5 faiz, Almaniyada 9,23 və 8,3 faiz, Litvada 6 və 6,4 faiz, Bolqarıstanda 4,6 və 6,9 faiz, Belarusda 6 faiz təşkil edir.

Həmçinin sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) üzrə minimum aylıq əməkhaqqının 4 faizi miqdarında icbari tibbi sığorta haqqı müəyyənləşdirilib.

"Tibbi sığorta haqqında" Qanuna əsasən, 2023-cü ildən etibarən isə müstəqil ödəyicilər üzrə təqvim ili üçün minimum aylıq əməkhaqqının 48 faizi miqdarında icbari tibbi sığorta haqqı nəzərdə tutulmuşdur. Məsələn, hazırda ölkədə minimum aylıq əməkhaqqının məbləği 250 manatdır. Həmin məbləğin 48 faizi miqdarında - təqvim ili üçün 120 manat icbari tibbi sığorta haqqı hesablanacaqdır.

İcbari tibbi sığorta haqlarının bir qisminin Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzini, dizel yanacağı və maye qaza (hər litrinə görə) və energetik içkilərə (alkoqollu və alkoqolsuz), elektron siqaret üçün mayeyə, tütün məmulatlarına, alkoqollu içkilərə aksiz markasının verilməsinə görə formalaşması məntiqidir. Bu, qeyd edilən malların istər ekologiyaya, istərsə də insan orqanizminə vurduğu ziyanın kompensasiya edilməsi baxımından olduqca vacibdir. Qanunun bu bəndinin tətbiqi, eyni zamanda zərərli vərdişlərdən imtina edilməsi kimi də sosial əhəmiyyətli bir aksiya hesab oluna bilər.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatlarına görə, 2020-ci il üçün icbari tibbi sığorta fondunun büdcəsinin gəlir və xərc istiqamətləri müəyyənləşdirilmişdir. Dövlət büdcəsi tərəfindən adambaşına illik 90 manat olmaqla, ümumilikdə 900 milyon manat, işçi və işəgötürənlərdən hər biri üzrə 229 milyon manat, digər mənbələrdən 185 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılır.

## Maarifləndirmə genişləndirilməlidir

İcbari tibbi sığortanın tətbiqi zamanı zəruri olan işlərdən biri də əhalinin maarifləndirilməsidir. Bu istiqamətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə vətəndaş cəmiyyəti institutlarının apardığı işlər təqdirəlayiqdir. Ümumiyyətlə, Azərbaycanda dövlət-vətəndaş cəmiyyəti institutları arasındakı əməkdaşlıq gündən-günə güclənməkdədir. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 20 noyabr 2019-cu il tarixində 18 dövlət qurumu, o cümlədən Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə elan etdiyi müsabiqə bunun bariz nümunəsidir.

Fikrimizcə, əhalinin maarifləndirilməsi işi 2020-ci ildən daha da genişləndirilməlidir. Vətəndaş ailə həkimini necə seçəcəyini, hansı tibbi xidmətlərdən istifadə edəcəyini və s. bilməlidir. Odur ki, icbari tibbi sığortadan istifadə mexanizmi ilə bağlı sosial çarxların hazırlanması və KİV-də, sosial şəbəkələrdə yayımlanması, posterlərin artırılması, bukletlərin paylanması, təlimlərin verilməsi zəruridir. Nəzərə alsaq ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2020-ci ildən bu sistemin tətbiqi ilə bağlı işləri daha da artacaqdır, o zaman prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb olunması məsələsi daha da aktuallaşacaqdır. Qeyri-hökumət təşkilatlarının, könüllülərin daha yaxından cəlb olunması bu işin səmərəliliyini artıracaqdır. Əhalinin müxtəlif sosial-demoqrafik qruplarının maarifləndirilməsi ilə bağlı təlimlərə xüsusi yer vermək lazımdır. Tibbi personalın özünün də təlimlərə cəlb olunması olduqca vacibdir. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birlikdə elan etdiyi qrant müsabiqəsi kimi fəaliyyətlər bu işə öz töhfələrini verəcəkdir.

*Rəsmiyyə ABDULLAYEVA,*
*AMEA İqtisadiyyat İnstitutunun elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru, dosent*



# Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin dərinləşdirilməsində hər iki tərəf maraqlıdır

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransada işgüzar səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Hikmət Hacıyev Fransa Prezidentinin siyasi məsələlər üzrə müşaviri Emmanuel Bon, Müdafiə nazirinin siyasi məsələlər üzrə müşaviri Ksaviye Şatel, Avropa və Xarici İşlər Nazirliyinin Kontinental Avropa idarəsinin direktoru Frederik Mondoloni ilə görüşüb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov və ölkəmizin Fransadakı səfiri Rəhman Mustafayev görüşlərdə iştirak ediblər.

Görüşlər zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilib və əlaqələrin daha da dərinləşdirilməsində hər iki tərəfin maraqlı olduğu bildirilib.

Hikmət Hacıyev Azərbaycan-Fransa əlaqələrinin inkişafında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın böyük rol oynadığını xüsusi vurğulayıb. O, son illərdə həyata keçirilmiş yüksəksəviyyəli səfərlərin müsbət nəticələrini xatırladıb. Görüşlərdə Azərbaycan ilə Fransa arasında ikitərəfli və regional çərçivədə əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə edilib, ikitərəfli və çoxtərəfli formatda geniş potensialın mövcudluğu vurğulanıb. Həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fikir mübadiləsi aparılıb və ölkəmizin ədalətli mövqeyi bir daha qarşı tərəfin diqqətinə çatdırılıb.

Qeyd edək ki, Avropa və Xarici İşlər Nazirliyində keçirilən görüşdə ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti də iştirak edib.

# Fransa beyin mərkəzlərinin rəhbərləri ölkəmizin xarici siyasəti və müasir inkişafı haqqında məlumatlandırılıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransaya səfəri çərçivəsində bu ölkənin qabaqcıl beyin mərkəzlərinin rəhbərləri ilə görüşüb və "Azərbaycanın xarici siyasəti və müasir inkişafı" mövzusunda məruzə ilə çıxış edib.



AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev qonaqlara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar, iqtisadiyyat, məhkəmə-hüquq sistemi və dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Ötən ay ölkəmizdə bələdiyyə seçkilərinin uğurla baş tutduğunu, fevralın 9-da parlament seçkilərinin keçiriləcəyini bildirən Prezidentin köməkçisi ictimaiyyət arasında seçkilərə böyük marağın olduğunu bildirib və seçki prosesinin azad, ədalətli keçirilməsi üçün lazımi şəraitin yaradıldığını vurğulayıb. O, bir sıra beynəlxalq təşkilatların müşahidə missiyalarının artıq Bakıda işə başladığını diqqətə çatdırıb.

Azərbaycanın çoxistiqamətli xarici siyasət yürütdüyünü bildirən Hikmət Hacıyev ölkəmizin xarici siyasətini formalaşdıran amillər və xarici siyasət prioritetləri barədə ətraflı danışıb. O, Azərbaycanın xarici siyasətdə kənarlaşdırıcı deyil, inklüziv yanaşmanı rəhbər tutduğunu bildirərək bu gün Azərbaycanın dünya dövlətləri ilə faydalı əməkdaşlıq qurduğunu qeyd edib.

Prezident Administrasiyasının rəsmisi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, iki ölkə arasında son dövrlərdə aparılan danışıqlar prosesi barədə də auditoriyanı məlumatandırıb. O, Ermənistanın işğala əsaslanan status-kvonu möhkəmləndirməyə çalışdığını və ziddiyyətli bəyanatlarla danışıqlar prosesini pozduğunu diqqətə çatdırıb.

Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin cari vəziyyətindən məmnunluq ifadə edən Prezidentin köməkçisi hər iki tərəfin bu əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirib və bu xüsusda yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

Mühazirədə, həmçinin Azərbaycanın tərəfdaşları ilə birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələri, habelə ölkəmizin Avropa İttifaqının etibarlı tərəfdaşı olması, bu il Azərbaycan qazının TANAP və TAP kəmərləri vasitəsilə Avropaya çatdırılacağı, o cümlədən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyəti barədə danışılıb.

Sonda Hikmət Hacıyev tədbir iştirakçılarının müxtəlif mövzularda çoxsaylı suallarını cavablandırıb.

# Azərbaycanın şəhid olan sərhədçi əsgəri dəfn edilib



Azərbaycanın şəhid olan sərhədçi əsgəri dəfn edilib. Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində atəşkəs rejimini pozması nəticəsində şəhid olan Fərzalı Əlimövsüm oğlu Fərzəliyev Ucar rayonunun Alpı kənd qəbiristanlığında dəfn olunub.

Dəfn mərasimində Dövlət Sərhəd Xidmətinin, Ucar Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, şəhidin ailə üzvləri, yaxınları, komandirləri və əsgər yoldaşları, eyni zamanda rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Sərhədçi əsgərin ölümündən sonra layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal və Azərbaycan Respublikasının Dövlət Bayrağı şəhidin atasına təqdim edilib. Yaylım atəşindən sonra şəhidin nəşi torpağa tapşırılıb.

***"Azərbaycan"***

# Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında illik fəaliyyət planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2020-ci il üçün birgə fəaliyyət planı imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyənləşdirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

# Azərbaycan Ordusunda hərbi xidmətin nüfuzunun yüksəldilməsi üzrə qurumlararası birgə tədbirlər planı imzalanıb

Müdafiə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman, Təhsil və Mədəniyyət nazirlikləri, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 2020-2023-cü illər üçün "Cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Azərbaycan Ordusunda hərbi xidmətin nüfuzunun yüksəldilməsi üzrə" birgə tədbirlər planını imzalayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, planda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşmasında tarixi fəaliyyətinin və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzda həyata keçirilən islahatların təbliği, hərbi xidmətin nüfuzunun yüksəldilməsi istiqamətində gənc nəsil arasında hərbi vətənpərvərlik ruhunda kütləvi tədbirlərin, gənclərin milli dəyərlərə, tarixi ənənələrə bağlılığını daha da artırmaq məqsədilə tarixi yerlərə gəzintilərin, tarixi günlərə həsr olunan "dəyirmi masa"ların təşkili, maarifləndirmə və təbliğat işlərinin aparılması və digər məsələlər nəzərdə tutulub.

Planlaşdırılan tədbirlərin vaxtında və yüksək səviyyədə həyata keçirilməsinin təmin edilməsi məqsədilə aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

# Ermənistan törətdiyi bütün qanunazidd əməllərin cavabsız qalmayacağını dərk etməlidir

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi yanvarın 7-də Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində açılan snayper atəşi nəticəsində sərhədçimiz Fərzalı Fərzəliyevin qətlə yetirilməsi ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada Ermənistan silahlı qüvvələrinin həm iki ölkənin dövlət sərhədində, həm də iki ölkə qoşunlarının təmas xəttində atəşkəsi davamlı şəkildə pozmasının, azərbaycanlı hərbi və mülki şəxsləri hədəfə almasının bu ölkənin sözdə beynəlxalq hüquq dəyərlərinə hörmətlə yanaşıb, münaqişəni sülh yolu ilə həll etmək çağırışlarının saxta olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasətini pərdələmək məqsədi güddüyünü növbəti dəfə açıq şəkildə göstərdiyi bildirilir. Vurğulanır ki, bu məqsədyönlü qəsdlə Ermənistan tərəfi bir daha açıq şəkildə təsdiq edir ki, məhz o, işğalçı ölkədir və Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı oyuncaq rejim arxasında gizlənmək cəhdləri tamamilə əsassızdır.

"Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan Dövlət Sərhəd Xidmətinin əsgərinin qətlə yetirilməsi cinayətdir və bu qanlı cinayətin məsuliyyəti Ermənistan tərəfinin üzərindədir. Azərbaycan ərazilərini hərbi işğal edib, bu ərazilərdə etnik təmizləmə həyata keçirən, beynəlxalq hüququn fundamental prinsiplərini tapdalayan və mütəmadi əsasda atəşkəsi pozmaqla Azərbaycan hərbi və mülki şəxslərini hədəf alan Ermənistan tərəfi törətdiyi bütün cinayətlərin məsuliyyətini və bu qanunazidd əməllərinin cavabsız qalmayacağını dərk etməlidir" deyə açıqlamada bildirilir.





# Yelkənçilər yeni ilə beynəlxalq qələbə ilə başladılar

## Yığmamız Türkiyədə keçirilən yarışdan medallarla qayıdıb

**Son illərdə bütün sahələrdə olduğu kimi, idman sahəsində də əsaslı irəliləyişlərə nail olunub, beynəlxalq yarışlarda bir sıra parlaq qələbələrə imza atılıb.**













Ötən il atletlərimizin beynəlxalq yarışlarda 775 medal (onlardan 271-i qızıl medaldır) qazanmaları onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanmağa qadirdilər.

Azərbaycanın idman uğurlarının artmasında federasiyaların, klubların, ayrı-ayrı sahələrdə çalışan mütəxəssislərin, idmançıların böyük əməyi var. Son illər Azərbaycanda idmanın inkişaf etdirilməsində Yelkənli İdman Federasiyasının da böyük rolu olub. Belə ki, Bakı şəhərinin dəniz kənarında yerləşməsi respublikada yelkən idmanının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradıb. Federasiya rəhbərliyinin məqsədyönlü fəaliyyəti nəticəsində bu idman növü ölkəmizdə uğurla inkişaf etməkdədir. Azərbaycanda son illər idmanın bu növünün inkişafı, kütləviliyinin artırılması üçün ardıcıl tədbirlər həyata keçirilir, mütəmadi yarışlar təşkil olunur.

### 156 peşəkar yelkənçi

Sevindirici haldır ki, qatıldıqları beynəlxalq turnirlərdə uğur qazanan idmançılar sırasında yelkənçilərimiz də var. Onlar təkcə daxili turnirlərdə deyil, həmçinin beynəlxalq yarışlarda da fəallıq göstərərək Azərbaycanı ləyaqətlə təmsil edirlər. Artıq yelkənçilərimiz 2020-ci ilə beynəlxalq qələbə ilə başlayıblar. Belə ki, bu günlərdə 4 ölkənin, 14 yelkən klubundan 156 peşəkar yelkənçinin iştirak etdiyi, Türkiyə Yelkənli İdman Federasiyasının, Bodrum Bələdiyyəsinin evsahibliyi ilə keçirilən yarış Azərbaycan yelkənçiləri üçün qələbə ilə sona çatıb. Azərbaycan, Türkiyə, Rusiya və Ukrayna yelkənçilərinin iştirakı ilə "Optimist" və "Laser 4.7", "Laser Radial" sinifləri üzrə 3 gün ərzində 8 yarış keçirilib. Yüksək dərəcə əldə etmək məqsədilə fədakarlıq nümayiş etdirən yelkənçilər qələbə uğrunda fəal mübarizə aparıblar.

Yarışda Azərbaycanı Yelkənli İdman Federasiyasının heyət rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı, məşqçi Anton Vilyayev, yelkənçilər Ayla Babayeva, Murad İsmayıl, İsmayıl Kərimov, Səxavət Əzimov, Fidan Ağazadə, Timur Sikaçevski, Murad Allahverdi, Murad Hacı-zadə, Bahadır Məmmədli təmsil ediblər. Yarışlarda yüksək nəticə əldə edən Azərbaycan Yelkənli İdman Federasiyasının yelkənçiləri "Laser 4.7" sinfi üzrə ilk medallarını qazanıblar.

Ayla Babayeva "Laser 4.7" sinfi üzrə qadınlar qrupunda 1-ci yerə, Murad İsmayıl "Laser 4.7" sinfi üzrə kiçik yaş qrupunda 2-ci yerə, İsmayıl Kərimov isə "Laser 4.7" sinfi üzrə ümumi nəticədə 4-cü yerə layiq görülüblər.

Bu ilin ilk günlərində Bodrumda yarışların keçirilməsi 2020-ci ilin mart ayında Türkiyədə təşkil olunacaq beynəlxalq yarışlara və İtaliyanın Qarda gölündə "Optimist" sinfi üzrə keçiriləcək dünya çempionatına, Portuqaliyada "Laser 4.7" sinfi üzrə keçiriləcək Avropa çempionatına, eyni zamanda 2021-ci ildə Bodrumda "Optimist" sinfi üzrə keçirilməsi planlaşdırılan dünya çempionatına hazırlıq məqsədi daşıyırdı.

### Uğurlar davamlıdır

Dünya və Avropa çempionatlarında dəfələrlə iştirak edən yelkənçilərimiz ən çətin şərtlər altında, əlverişsiz hava şəraitlərində belə illərin təcrübəsinə malik peşəkar idmançılarla əzmlə mübarizə apararaq hər zaman yüksək nəticələr əldə ediblər. Ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandası ötən il Omanda "Optimist" və "Laser" sinifləri üzrə təşkil olunan "Mussanah Race Week 2019" turnirində mükafatçılar sırasına düşməklə növbəti dəfə onlara göstərilən etimadı doğruldublar.

Yarışda Azərbaycanı "Optimist" sinfi üzrə Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Səxavət Əzimov, "Laser" sinifləri üzrə Murad Allahverdi, İsmayıl Kərimov və Cavid Kərimov təmsil ediblər. Heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı olub.

23 dövlətin qatıldığı 156 peşəkar idmançının iştirak etdiyi yarışda Azərbaycan Yelkənli İdman Federasiyasının təmsilçiləri bacarıqlarını layiqincə nümayiş etdiriblər. 12 yaşlı qızlar arasında 68 nəfərin apardığı maraqlı və gərgin mübarizədə "Optimist" sinfi üzrə Azərbaycanı təmsil edən Fidan Ağazadə 3-cü yerin qalibi olub.

Qeyd edək ki, peşəkarlar arasında 3-cü yerin qalibi adını qazanmaq Azərbaycan Yelkənli İdman Federasiyasının gənc üzvünün böyük uğuru kimi qiymətləndirilib.

Bir məqamı da vurğulayaq ki, Azərbaycan yelkənçilərinin ağır şərtlərlə pis hava şəraitində məşq və yarışlarda peşəkarlıq nümayiş etdirməsi beynəlxalq məşqçilərin hesabatlarında xüsusi qeyd olunub.

Yelkənçilərimizin uğurları 2019-cu ildə Omanda qazanılan yüksək göstəricilərlə yekunlaşmır. Xatırladaq ki, 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində keçirilən "Beynəlxalq Xəzər Kuboku" yarışında da idmançılarımız vətənə medallarla qayıdıblar. Turnirdə Azərbaycan idmançıları ilə yanaşı, Qazaxıstan və Özbəkistan təmsilçiləri də mübarizə aparıblar. Beynəlxalq turnirdə kişi idmançılarımız birinci və üçüncü yerlərdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar. Hər üç əyarlı medalların hamısına sahib olan yelkənçilərimizin yarışda qazandıqları parlaq qələbələr əcnəbi məşqçilərin də diqqətini cəlb edib, onların uğuru böyük rəğbətlə qarşılanıb.

Yarışda Azərbaycanı Murad Hacızadə, Kristina Kərimova, Ayla Babayeva, Fidan Ağazadə, Səxavət Əzimov, Nicat Şükürov, İsmayıl Həmidov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, köməkçi məşqçi Aleksandr Knyazev təmsil ediblər.

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova isə 2018-ci ildə Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasından 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

2019-cu il aprelin 18-22-də Yelkənli İdman Federasiyasının yığma komandası "Optimist" və "Laser" sinifləri üzrə "32-th Izola Spring Cup" və "Easter Regatta" yarışlarında da fəal iştirak ediblər. Azərbaycanı yarışlarda "Optimist" sinfi üzrə yelkənçilərimiz Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Murad Hacı-zadə, Murad İsmayılov və Səxavət Əzimov, "Laser" sinfi üzrə Murad Allahverdi, İsmayıl Kərimov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı və köməkçi məşqçi Anton Vilyayev təmsil ediblər. Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandasının Avropa çempionatına hazırlıq məqsədilə qatıldığı yarışlarda 14 ölkədən 450 idmançı iştirak edib.

### Yelkənli idman növündə yüksəliş mərhələsi

Aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerlərinin, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.

Məlumat üçün bildirək ki, "Optimist" 1974-cü ildə yaradılan yelkən növüdür. Yelkən siniflərinin arasında ilk olan "Optimist" 8-15 yaşlı yeniyetmələr üçün nəzərdə tutulub. "Optimist" Beynəlxalq Yelkənli İdman Federasiyasının "16 yaşdan aşağı sinif" olaraq rəsmən təsdiq edilən yeganə sinifdir. "Optimist" uşaqların 15 yaşına qədər çempionata hazırlıqlarını artırmaqdan və yelkənə məhəbbət yaratmaqdan ibarətdir. Yelkən sahəsi 4.7 $m^2$ olan "Laser 4.7" sinfi isə "Optimist" sinfindən sonra başlanğıc üçün "Laser"in ən uyğun sinfidir. "Laser 4.7" "Laser Radial"dan sonra meydana çıxıb. "Laser" firmasının ölçülərində istifadəçinin 35-50 kq olması ideal çəki kimi göstərilir.

Təlim-məşq düşərgələrində iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsidir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması üzrə yeni qayda qüvvəyə minib

"Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması" qaydası 2020-ci il yanvarın 1-dən qüvvəyə minib. Prezidentin 2019-cu il 27 iyun tarixli fərmanı ilə təsdiq edilən yeni qaydaya əsasən, aqrar subsidiyalar fermerlərə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə veriləcək.



Kənd təsərrüfatı sahəsinə dəstək tədbirləri ilə bağlı yeni mexanizm bu sahədə hesabatlığın, şəffaflığın artmasına, büdcə vəsaitlərinin səmərəli istifadəsinin təmin olunmasına, fermerlər üçün müraciətlərin sadələşdirilməsinə, elektronlaşdırılaraq asanlaşdırılması və əlçatan olmasına xidmət edir.

Yeni mexanizmin tətbiqi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi bütün hazırlıq tədbirlərini başa çatdırıb. Elektron hökumət portalı www.mygov.az içərisində www.eagro.az portalı formalaşdırılıb və portalda 449259 fermer qeydiyyatdan keçib. Əkinçiliklə məşğul olan fermerlərin torpaq sənədləri və payızlıq əkinləri barədə məlumat Kənd Təsərrüfatı Nazirliyinin intensiv təlimlər keçmiş əməkdaşlarının dəstəyi ilə sistemə daxil edilib. Hazırda bu məlumatların monitorinqi aparılır. Monitorinqlər yekunlaşdıqdan sonra mərhələli olaraq subsidiyalar fermerlərin kartlarına köçürüləcək.

## Yeni ilin ilk marşrut xətti Bakıdan Cocuq Mərcanlı istiqamətinədir

Bu gündən Bakıdan Cocuq Mərcanlı istiqamətinə ilk marşrut xətti istifadəyə verilir.




Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən yayılan məlumata görə, 2 müntəzəm və 4 qeyri-müntəzəm xətt üzrə ümumilikdə 6 avtobus sərnişinlərin xidmətində olacaq. Müntəzəm marşrut xətti üzrə Bakı-Sabirabad-Saatlı-İmişli-Daşburun-Horadiz-Cocuq Mərcanlı, qeyri-müntəzəm xətt üzrə Bakı-Cocuq Mərcanlı trayektoriyası əhatə ediləcək.

Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yaranmışdır. Bu məsələdə dövlət başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" sərəncamı xüsusi əhəmiyyətə malikdir. Həmin sərəncam çərçivəsində Cocuq Mərcanlı sakinlərinin ölkənin bütün istiqamətlərinə, o cümlədən Bakıya rahat gediş-gəlişini təmin etmək məqsədilə yeni marşrut xətlərinin istifadəyə verilməsi davam edəcək.

Ümumi uzunluğu 9 kilometr, eni 12 metr olan iki hərəkət zolaqlı yolun tikintisi Prezident İlham Əliyevin 2017-ci ilin fevralında imzaladığı "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncama əsasən həyata keçirilib.

Xatırladaq ki, ötən ilin sonunda Cocuq Mərcanlıya 3 istiqamətdə - Sumqayıt, Mingəçevir və Gəncə istiqamətində xətlər istifadəyə verilmişdir.

## Yeni sistemlər il ərzində 200 minədək təyinatın e-qaydada aparılmasına imkan verir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ildə 21 sosial təminat növü üzrə elektron təyinat sistemi qurularaq işə salınıb.

Nazirliyin yaydığı məlumata görə, ötən ilin əvvəlindən yaşa və əlilliyə görə pensiya növlərinin təyinatı avtomatlaşdırılmaqla il ərzində daha 19 müavinət-təqaüd növü üzrə e-təyinat sistemləri də fəaliyyətə başlayıb. Onların sırasına uşağın doğulmasına görə birdəfəlik müavinət, əlilliyə, yaşa görə və sağlamlıq imkanları məhdud uşağa, şəhid ailəsi üzvlərinə, şəhidlərin, müharibə əlillərinin, 20 Yanvar əlillərinin, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət, şəhid ailələrinə, həmçinin fəxri adlara görə Prezidentin aylıq təqaüdü və s. kimi müavinət və təqaüd növləri daxildir.

Ötən il 15 mindən çox şəxsə e-qaydada pensiya, son aylarda fəaliyyətə başlayan e-təyinat sistemləri vasitəsilə isə artıq 20 mindən çox şəxsə müavinət-təqaüd təyin edilib.

Ümumilikdə 2019-cu ildə qurulan elektron sistemlər il ərzində sosial təminat növləri üzrə 200 minədək təyinatın elektron qaydada həyata keçirilməsinə imkan verir.

## Aqrar Xidmətlər Agentliyi beynəlxalq uyğunluq sertifikatına layiq görülüb

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (AXA) beynəlxalq İSO 9001:2015 (Keyfiyyətin İdarə Olunması) standartının tələblərinə uyğunluq auditindən keçib.




"KIWA Niderland" şirkəti tərəfindən uyğunluq auditindən keçən AXA beynəlxalq İSO 9001:2015 uyğunluq sertifikatına layiq görülüb.

Qeyd edək ki, "KIWA Niderland" şirkəti beynəlxalq sertifikatlaşdırma, test və inspeksiya xidmətləri üzrə qlobal liderdir. Avropa, Asiya və Latın Amerikasında 150-dən çox ofisi olan şirkət dünyanın 30-dan çox ölkəsində fəaliyyət göstərir.

"KIWA Niderland" şirkəti kənd təsərrüfatı, yem, qida, istehsal, emal sənayesi sektoru, biznesin inkişafı sahəsi, ictimai və özəl sektorda dövlət və beynəlxalq qurumlara xidmət göstərir və öz geniş təcrübəsi ilə müştərilərə dəstək olur.

# Uğurlarımız düşünülmüş siyasətin təzahürüdür

## Prezident İlham ƏLİYEV: "Mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

*Əvvəli 1-ci səh.*

Turistlər adətən abad, firavan, yolu-rizi rahat məkana can atırlar. Bu baxımdan indi Azərbaycan diqqətçəkən ölkədir.

Yoldan söz düşmüşkən, keçən il ölkəmizdə 1000 kilometrdən çox avtomobil yolu çəkilib. Son illərin tendensiyası belədir. Odur ki, 15 il ərzində çəkilən yolların ümumi uzunluğu 15 min kilometri ötüb.

Prezident İlham Əliyev xalqa təbrikində sosial və infrastruktur layihələrinin bundan sonra da davam edəcəyini bildirib. Həyata keçirilən nəhəng layihədən - "Cənub qaz dəhlizi"ndən bəhs edərkən dövlət başçısı demişdir: "Biz Avropanın, Avrasiyanın energetika və nəqliyyat xəritəsini yenidən cızırıq. Biz bu layihənin təşəbbüskarı olmuşuq. Biz əsas yükü - həm maliyyə, həm texniki məsuliyyəti öz üzərimizə götürmüşük və tərəfdaşlarla birlikdə bu nəhəng və böyük əhəmiyyət kəsb edən layihəni uğurla icra edirik".



Məlum olduğu kimi, "Cənub qaz dəhlizi" 2018-ci ildə istismara verilib, artıq ilyarımdır fəaliyyətdədir. 2019-cu il bu layihənin salnaməsinə TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) yekunlaşması, yəni Avropanın sərhədinə çatması ili kimi yazıldı. Beləliklə, indi artıq dəhlizin dörd seqmentindən üçü tam hazırdır və uğurla fəaliyyət göstərir. Bunlar "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi və TANAP layihələridir. Sonuncu hissə olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) çəkilişi də artıq sona yaxınlaşır. Başqa sözlə, Avropa 2020-ci ildən başlayaraq Azərbaycan qazı alacaq.

Ölkə əhalisinin artmasını da dövlət başçısı müsbət hal kimi qeyd edib. Bu da təsadüfi deyil. Çünki dünyanın bir çox ölkələrində demoqrafik vəziyyətin gərgin olduğu, bəzi yerlərdə əhalinin sayının hətta azaldığı bir zamanda Azərbaycanda doğumun səviyyəsi yüksək olaraq qalır. Yeni doğulanların sayı dünyasını dəyişənlərin sayını iki dəfədən çox üstələyir. Bu da dövlətin ardıcıl sosial siyasətinin nəticələrindən biridir.

2019-cu ilin oktyabr ayının 1-i vəziyyətinə ölkə əhalisinin sayı 10 milyon 44 min 466 nəfərə çatıb. 10 milyonuncu vətəndaşımız həmin ilin aprel ayında dünyaya göz açıb. Prezident İlham Əliyev bunu da böyük tarixi hadisə kimi dəyərləndirib: "Bu il 10 milyonuncu vətəndaş dünyaya gəldi... Müstəqillik dövründə bizim əhalimiz 3 milyondan çox artmışdır. Bu, bizim həm gücümüzü, həm də məsuliyyətimizi artırır. Çünki artan əhali böyük üstünlükdür, eyni zamanda, iqtisadi artım artan əhalini daim qabaqlamalıdır. Artan əhali o deməkdir ki, yeni məktəblər, yeni uşaq bağçaları, yeni xəstəxanalar tikilməlidir, yeni iş yerləri yaradılmalıdır".

Beləliklə, Azərbaycanda həyata keçirilən ardıcıl sosial-iqtisadi islahatlar həm də xalqın sabahına hesablanır. Dünyaya gələn nəslin xoşbəxt gələcəyi üçün də böyük, genişmiqyaslı işlər görülür. Prezident İlham Əliyev öz təbrikində bu istəyi, məqsəd-məramı ən səmimi və xoş sözlərlə ifadə etmişdir: "Allah bütün uşaqlarımızı xoşbəxt eləsin, Allah bütün balalarımızı qorusun".

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Azərbaycan bütün sahələrdə Rusiya ilə əməkdaşlığa xüsusi önəm verir

## 2019-cu il iki ölkə arasındakı münasibətlərin tarixinə ən fəal və dinamik dövr kimi yazıldı

*Əvvəli 1-ci səh.*

Müsahibədə bildirilib ki, keçən ilin sonunda ölkəmizdə 100 faiz Rusiya investisiyalı əczaçılıq müəssisəsi açılıb. Bu məqsədlə "Qazprombank" tərəfindən 500 milyon dollar vəsait ayrılıb. Həmin müəssisənin fəaliyyətə başlaması Azərbaycanın sözügedən sahədə idxaldan asılılığını azaltmaqla ölkəmizdən valyuta axınının da qarşısını alacaq.

Azərbaycanda həmçinin bir çox Rusiya avtomobilləri də istehsal olunur. Məsələn, "KamAZ" və "Ural" avtomobillərindən savayı, təzəlikcə "QAZ" avtomobilləri istehsalı zavodunun da təməli qoyulub. Məlumdur ki, Bakıda mühüm ictimai nəqliyyat vasitəsi olan metro sovet dövründə fəaliyyətə başlayıb. Elə həmin dövrdən metroda Rusiyada istehsal olunan vaqonlardan istifadə edilib. Bu ənənə indi də davam edir. Belə ki, bu sahədə Rusiya şirkəti ilə üçillik müqavilə imzalanıb. Məqsəd "Bakı Metropoliteni"nin vaqon parkının tamamilə yenilənməsidir.

İki ölkə arasında iqtisadi əlaqələrin artmasında nəqliyyat infrastrukturunun da böyük rolu var. Bu baxımdan Samur çayı üzərində yeni avtomobil körpüsünün açılışının əhəmiyyəti əvəzsizdir. Köhnə körpü ötən əsrin 50-ci illərində inşa edilmişdi və müasir dövrün tələblərinə, nəqliyyatın intensivliyinə cavab vermirdi. Yeni körpü isə ölkələrimiz arasında mal mübadiləsini sürətləndirəcək. Təsadüfi deyil ki, "Şimal-Cənub" layihəsinin həyata keçirilməsi sayəsində iki ölkə arasında 2018-ci ildə yükdaşıma 8 dəfə, ötən il isə 60 faiz artıb. Ümumiyyətlə, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin səmərəli fəaliyyəti üçün ölkəmizin ərazisində nəqliyyat-logistika imkanlarını artırmaq məqsədilə bir çox işlər görülüb.

Prezident İlham Əliyev Rusiya ilə olan iqtisadi əlaqələrin dinamikasına toxunaraq bildirib ki, iki ölkə arasında əmtəə dövriyyəsi ildən-ilə artır. Əgər 2018-ci ildə bu artım 20 faiz olmuşsa, ötən il həmin rəqəm 25 faizə çatmışdır. Beləliklə, ölkələrimiz arasında qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 3 milyard dollara yaxınlaşmışdır.

Azərbaycanda yaradılan nəhəng infrastruktur layihələri qonşu ölkələrlə əlaqələrin genişlənməsinə yeni imkanlar açır. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu nəqliyyat dəhlizindən Çin və Mərkəzi Asiyadan Avropaya yüklər daşınır. Artıq Rusiya da bu imkandan istifadə edərək öz yüklərini Türkiyəyə və Türkiyə üzərindən Avropaya göndərir. İki ölkə arasında bu cür qarşılıqlı nəqliyyat mübadiləsi həm də iqtisadi inteqrasiyanı dərinləşdirir. Üstəlik, belə imkan hər iki tərəfə fayda gətirir.

Dövlət başçısı müsahibəsində qonşu ölkələr arasında enerji sahəsində qarşılıqlı əməkdaşlığın əhəmiyyətini yüksək qiymətləndirib. Bildirib ki, Azərbaycan, Rusiya və İranın enerji sistemləri paralel rejimdə işləyir. Yəni bu üç ölkənin hər hansı birində qəza baş verdikdə digər tərəflər onu enerji ilə təmin edir. Yeri gəlmişkən qeyd edək ki, bu gün Azərbaycan həmçinin Gürcüstan, Türkiyə və bəzi Avropa ölkələrinə də elektrik enerjisi ixrac edir.

Prezident İlham Əliyev müsahibəsində iki ölkə arasında iqtisadi əlaqələri daha da inkişaf etdirmək üçün bürokratik əngəllərin aradan qaldırılmasının vacibliyinə də toxunmuşdur: "Bu məsələlər il ərzində detallı şəkildə müzakirə olunub. Belə ki, sizin söylədikləriniz bizim münasibətlərimizin, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafının ayrılmaz hissəsidir. Ona görə də ölkələrimizin müvafiq strukturlarına artıq bu gün gömrük prosedurlarının sadələşdirilməsi, yüklərin daşınmasına nəzarət üzrə müasir texnologiyaların tətbiqi, sərhədi keçməyin sadələşdirilməsinə dair tapşırıqlar verilib. Həm Azərbaycanda, həm də Rusiyada bu istiqamətdə müasir texnologiyalar tətbiq edilir. Ona görə düşünürəm ki, məhz bu cür inzibati və bürokratik maneələrin aradan qaldırılması əsas istiqamətlərdən biri olacaq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Türk axını" mərasimində Azərbaycan da təmsil olunmuşdur

Energetika naziri Pərviz Şahbazov "Türk axını" təbii qaz boru kəmərinin açılış mərasimində iştirak məqsədilə Türkiyəyə səfər etmişdir.




Səfərin məqsədi "Türk axını" boru kəməri ilə bağlı keçirilən mərasimdə iştirak etmək olmuşdur.

Dünən İstanbulda keçirilən mərasimə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə yanaşı, bır sıra ölkələrin yüksək səviyyəli hökumət nümayəndələri də qatılmışlar.

Məlumat üçün bildirək ki, "Türk axını" layihəsi üzrə tikinti işlərinə 2017-ci ildə başlanılmışdı. Boru kəmərinin Qara dənizdən keçən qoşa xəttinin uzunluğu 930 kilometrdir. Kəmərin birinci xətti Türkiyə bazarı, ikincisi isə Cənub və Cənub-Şərqi Avropa ölkələrinə qaz tədarükü üçün nəzərdə tutulub. Xətlərin hər birinin ötürücülük qabiliyyəti 15,75 milyard kubmetrdir.

## BTQ dəmir yolu vasitəsilə Çindən Türkiyəyə yüklərin daşınmasına başlanılıb

Çindən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu vasitəsilə Türkiyəyə quru meyvə daşınmasına başlanılıb. Dekabrın son günlərində Çinin şimal-qərbindəki Sincan Uyğur Muxtar Rayonunun inzibati mərkəzi olan Urumçi şəhərindən yola düşən qoz yüklənmiş 40 futluq 44 konteyneri daşıyan qatar Qazaxıstandan keçərək Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatıb.



Yük yaxın bir neçə gün ərzində Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Türkiyənin Mersin şəhərinə çatdırılacaq. "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" yükün daşınması üzrə operatorlardan biridir.

"Sincan meyvə qrupu" şirkətindən bildiriblər ki, Türkiyəyə yola salınmış 984 tondan çox olan qoz muxtar rayonun Hotan, Qaşğar və Ağsu prefekturularındakı fermerlerdən tədarük edilib. Muxtar rayonda yetişdirilən qoz keyfiyyəti və sabit qiyməti ilə son vaxtlar xarici müştərilərin, xüsusən də Türkiyə və Rusiyadan olan idxalçıların diqqətini cəlb etməyə başlayıb. Qoz yüklənmiş növbəti qatarın gələn ay eyni marşrutla Türkiyəyə yola salınması planlaşdırılıb.

Qeyd edək ki, Çin ilə Avropa arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xəttinin istifadəyə verilməsi Çinin əsasən qərb hissəsində yerləşən vilayətlərindən yüklərin Avropaya daşınması üçün daha əlverişli imkanlar yaradıb. Yüklərin bu yolla Avropaya nəqli vaxt itkisini və daşınma xərclərini azaldıb.

İpək Yolu Beynəlxalq Ticarət Palatasının baş katibi Li Cunxan bir müddət əvvəl AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində bildirmişdi ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb.

"Bakı-Tbilisi-Qars" layihəsi həm də Azərbaycanın dəmir yolu nəqliyyatı sahəsində çox mühüm rol oynadığını nümayiş etdirdi" deyə baş katib bildirib. O, Türkiyə, Azərbaycan və Gürcüstanı əhatə edən bu dəmir yolunun bir çox ölkələrin iqtisadiyyatının inkişafına müsbət təsir göstərəcəyini qeyd edib. Deyib ki, bu dəmir yolu "Bir kəmər, bir yol" strategiyasının səmərəliliyini artıracaq. Ona görə də Çin bu dəmir yolu xəttinə böyük əhəmiyyət verir: "Belə ki, Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış əldə etmiş olur. Arzu edirik ki, təkcə Çin malları deyil, həm də Avropa yükləri bu yolla Çinə daşınsın".

## Keçən il 135 minə yaxın vətəndaşa peşəyönümü məsləhət xidməti göstərilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 2019-cu ildə 134 760 vətəndaşa peşəyönümü məsləhət xidməti göstərilib.

Onlardan 35 214 nəfəri işaxtaran, 99 546 nəfəri isə məktəblidir. İştirakçılara düzgün peşə seçmək qaydaları, işəgötürənlər tərəfindən tələb olunan peşə və ixtisaslar barədə məlumatlar verilib, əmək bazarında mövcud vəziyyətlə bağlı təqdimatlar edilib.

Şagirdlərlə müsahibə və testlər keçirilib. Həmçinin Dövlət Məşğulluq Xidməti tərəfindən göstərilən məşğulluq xidmətləri, aktiv məşğulluq tədbirləri barədə məlumatlar verilib.

## Ukraynanın 3 şəhərində SOCAR-ın yeni yanacaqdoldurma kompleksləri açılacaq

SOCAR 2020-ci ildə Ukraynanın Kiyev, Xarkov və Dnepr şəhərlərində yeni yanacaqdoldurma komplekslərini açacaq.




SOCAR-ın Ukraynadakı törəmə şirkəti olan "SOCAR Energy Ukraine"yə istinadən AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, artıq Kiyev və Xarkov şəhərlərində yeni yanacaqdoldurma kompleksləri üçün tikinti işlərinə başlanılıb. Yanvarın sonlarından isə Dneprdə tikinti işlərinə start veriləcək.

Yeni komplekslərin üstün cəhəti onların xüsusi dizaynla müasir sənaye üslubunda tikilməsidir. Burada bütün işlər SOCAR-ın ənənəsinə uyğun olaraq aparılır.

Xatırladaq ki, hazırda SOCAR-ın Ukrayna şəbəkəsində 60 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir.

Sonda məlumat üçün bildirək ki, "SOCAR Energy Ukraine" SOCAR-ın törəmə şirkətidir. SOCAR-ın Ukraynadakı nümayəndəliyi 2008-ci ildə açılıb. Hazırda premium-klass yanacaqdoldurma məntəqələri şəbəkəsinə 60 kompleks, 2 yağ bunkerçisi daxildir. Onlar Ukraynanın 11 vilayətində fəaliyyət göstərir.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Yanvarın 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda əvvəlcə 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilər və ötən il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar maraqlı subyektlərin də iştirakı ilə MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Milli Məclisə seçkilərə dair müraciətlər komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra namizədin qeydə alınmaması ilə bağlı müvafiq dairə seçki komissiyalarının qərarları ləğv olunaraq, namizədliyi öz təşəbbüsü ilə irəli sürülən daha iki nəfərin Milli Məclisə seçkilərdə namizədliyinin qeydə alınmasına qərar verilib.

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-ya daxil olmuş müraciətlərin müzakirəsi zamanı da vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün hərtərəfli və obyektiv araşdırılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Beynəlxalq müşahidə missiyaları və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

QƏRAR № 6/35

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 yanvar 2020-ci il tarixli 8 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Həsənov Samir Qəzənfər oğlu 5 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair 45 saylı Abşeron seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 31 dekabr 2019-cu il tarixli 35/465 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd S.Q.Həsənov müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumatı düzgün təqdim etmədiyinə görə dairə seçki komissiyasının müvafiq qərarı ilə namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun iclasda iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası S.Q.Həsənovun namizədliyinin qeydə alınmasından imtina barədə qərarını namizədin öz əmlakı barədə düzgün məlumat verməməsi ilə əsaslandırmışdır.

Araşdırma ilə əlaqədar müvafiq sənədlər dairə seçki komissiyasından tələb edilmiş və müəyyən olunmuşdur ki, namizəd S.Q.Həsənov mülkiyyət hüququ əsasında ona məxsus olan daşınmaz əmlakı barədə məlumatı dairə seçki komissiyasına verməmişdir. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupunun 2020-ci il 7 yanvar tarixli rəyindən müəyyən edilir ki, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətindən verilmiş arayışa əsasən namizəd S.Q.Həsənova məxsus daşınmaz əmlak dövlət qeydiyyatına alınmışdır.

Namizəd S.Q.Həsənovun ona məxsus daşınmaz əmlak barədə dairə seçki komissiyasına düzgün məlumat verməməsi Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərə əsasən şikayət təmin edilməməli, S.Q.Həsənovun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 35/465 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Həsənov Samir Qəzənfər oğlunun 5 yanvar 2020-ci il tarixli 8 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 35/465 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*08.01.2020-ci il*

QƏRAR № 6/36

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 6 yanvar 2020-ci il tarixli 9 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Taleh Sakit oğlu 6 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək deputatlığa namizədliyinin qeydə alınmasından imtinaya dair 44 saylı Sumqayıt-Xızı seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarını mübahisələndirmiş, qərarın ləğv edilərək namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun iclasda iştirakı təmin olunmuşdur.

T.S.Məmmədovun müraciəti ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər tələb edilərək alınıb araşdırılmışdır. Müəyyən edilmişdir ki, dairə seçki komissiyası namizədliyin qeydə alınmasından imtina edilməsi barədə 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarını onunla əsaslandırmışdır ki, T.S.Məmmədov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş 500 imzadan 114 imza, o cümlədən 70 imza oxşarlığa görə işçi qrupu üzvünün rəyi əsasında etibarsız hesab edildiyindən və həmin imzalar çıxıldıqdan sonra yerdə qalan imzalar Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədliyin qeydə alınması üçün kifayət etmədiyindən Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində T.S.Məmmədov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələri yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış işçi qrupuna təqdim edilmiş və imza vərəqələrindəki imzalarla bağlı məlumatların düzgünlüyünün yoxlanılması barədə işçi qrupunun 7 yanvar 2020-ci il tarixli protokoluna əsasən yoxlanılmış 500 imzadan 16 imza etibarsız, 484 imza isə etibarlı hesab edilmişdir. Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən etibarlı hesab edilən imzaların sayı T.S.Məmmədovun namizədliyinin qeydə alınması üçün hüquqi əsas yaratmışdır.

Beləliklə namizəd T.S.Məmmədovun müraciətinin təmin edilməsi, dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilərək namizədliyin qeydə alınması üçün hüquqi əsasların mövcud olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət təmin olunmalı, dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarı ləğv olunmalı və həmin seçki dairəsindən T.S.Məmmədovun namizədliyi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 60-cı, 147.1-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 44 saylı Sumqayıt - Xızı seçki dairəsindən namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Taleh Sakit oğlunun 6 yanvar 2020-ci il tarixli 9 saylı müraciəti təmin edilsin, dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarı ləğv edilsin.
2. Namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Taleh Sakit oğlunun 44 saylı Sumqayıt - Xızı seçki dairəsindən deputatlığa namizədliyi qeydə alınsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*08.01.2020-ci il*

QƏRAR № 6/37

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 yanvar 2020-ci il tarixli 10 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 44 saylı Sumqayıt-Xızı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əlixanov Toğrul Mustafa oğlu 6 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizədliyinin qeydə alınmasından imtinaya dair 44 saylı Sumqayıt - Xızı seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 1 yanvar 2020-ci il tarixli 1/2 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və pozulmuş hüquqlarının bərpa olunaraq namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd T.M.Əlixanov müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 44 saylı Sumqayıt-Xızı seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə müvafiq qaydada irəli sürmüş, həmin dairənin ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqələrini və ona əlavə edilmiş digər zəruri sənədləri dairə seçki komissiyasına təqdim etmiş, ancaq dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş T.M.Əlixanovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədliyin qeydə alınması üçün etibarlı seçici imzalarının sayı yetərli olmamışdır.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun iclasda iştirakı təmin olunmuşdur.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 7 yanvar 2020-ci il tarixli protokol və rəylərdən görünür ki, T.M.Əlixanovun namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Belə ki, namizəd tərəfindən toplanılmış 470 seçici imzasından 458-i etibarlı hesab edilmişdir ki, bu da namizədin qeydə alınması üçün kifayət edir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Beləliklə, aparılan araşdırmanın nəticələrinə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, dairə seçki komissiyasının T.M.Əlixanovun namizəd kimi qeydə alınmasından imtinaya dair 1 yanvar 2020-ci il tarixli 1/2 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən deputatlığa namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 44 saylı Sumqayıt-Xızı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əlixanov Toğrul Mustafa oğlunun 6 yanvar 2020-ci il tarixli 10 saylı müraciəti təmin edilsin, onun namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının 1 yanvar 2020-ci il tarixli 1/2 saylı qərarı ləğv edilsin.
2. 44 saylı Sumqayıt-Xızı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əlixanov Toğrul Mustafa oğlunun həmin seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*08.01.2020-ci il*

QƏRAR № 6/38

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 8 yanvar 2020-ci il tarixli 69 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 55 saylı Xaçmaz şəhər seçki dairəsindən Yergüc bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Qaflan İslam oğlunun Yergüc bələdiyyəsinə seçkilərdə məntəqə seçki komissiyalarında baş verməsi iddia edilən pozuntular barədə 25 dekabr 2019-cu ildə poçt xidmətinə təqdim etdiyi və 8 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş müraciətində həmin bələdiyyəni əhatə edən 4 seçki məntəqəsində qanun pozuntularının olduğunu iddia etmiş və qanuna müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən ilkin olaraq nəzərdən keçirilərkən Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 55 saylı Xaçmaz şəhər seçki dairəsindən Yergüc bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Qaflan İslam oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2020-ci il tarixli 69 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*08.01.2020-ci il*

QƏRAR № 6/39

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 6 yanvar 2020-ci il tarixli 66 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 51 saylı Qusar seçki dairəsindən Mucuq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rəhimxanov Alik Süvləddin oğlu 6 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) ərizə ilə müraciət edərək həmin seçki dairəsinin 41 və 42 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının araşdırılması barədə 51 saylı Qusar seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) qəbul etdiyi 28 dekabr 2019-cu il tarixli 24/128 saylı qərarını mübahisələndirmiş, həmin seçki məntəqələri üzrə seçkilərin nəticələrinin ləğv olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçi müraciətdə 41 və 42 saylı seçki məntəqələrində səsvermənin və səslərin hesablanmasının qanunauyğun aparılmadığını, onun maraqlarını təmsil edən müşahidəçilərə lazımi şəraitin yaradılmamasını, daşınan seçki qutusu ilə səsvermənin təşkil olunmamasını bildirmiş və şikayətinə bir ədəd elektron məlumat daşıyıcısı əlavə etmişdir.

Araşdırma prosesində müraciət etmiş qeydə alınmış namizəd A.S.Rəhimxanovla əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, digər hüquqlarının olması izah edilmiş, ona iclasın vaxtı barədə məlumat verilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddia olunanlar səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı 41 və 42 saylı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları olmadığından qeydə alınmış namizəd A.S.Rəhimxanovun müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü 51 saylı Qusar seçki dairəsinin 41 və 42 saylı seçki məntəqələrində seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, səslərin sayılması prosesi düzgün aparılmış, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuşdur. Belə ki, səsvermə günü baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal səslərin sayılmasını müşahidə etmiş, 41 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair protokolun surətini almış müşahidəçilər D.E.Aslanovun, F.V.Abdıyevin, A.Ə.Əmirəliyevin, B.D.Rzayevin, Z.M.Niftiyevin, M.M.Mövlanovun, 42 saylı seçki məntəqəsi üzrə isə müşahidəçilər N.G.Əliyarovanın, P.D.Baloğlanovanın, K.A.Dadaşovun, qeydə alınmış, lakin seçilməmiş namizədlər A.N.Nurmətovun, Ş.S.Muradovun, həmçinin məntəqə seçki komissiyaları üzvlərinin izahatları ilə təsdiq olunur.

Həmçinin müəyyən edilmişdir ki, seçicilərin səsvermə otağından kənarda səs vermələri barədə adıçəkilən məntəqələrə seçicilər tərəfindən müraciət daxil olmamış və daşınan seçki qutusundan səsvermə üçün istifadə edilməmişdir.

Müraciətə əlavə olunmuş elektron məlumat daşıyıcısında olan səs yazısındakı məlumatların səsvermə günü mübahisələndirilən qanun pozuntuları ilə hər hansı bir əlaqəsinin olması öz təsdiqini tapmamışdır.

Göstərilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 24/128 saylı qərarının ləğv olunması üçün hüququ əsaslar müəyyən edilmədiyindən müraciət əsassız hesab olunaraq təmin edilməməli və dairə seçki komissiyasının həmin qərarı dəyişdirilmədən saxlanmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 51 saylı Qusar seçki dairəsindən Mucuq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rəhimxanov Alik Süvləddin oğlunun 6 yanvar 2020-ci il tarixli 66 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 24/128 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*08.01.2020-ci il*

QƏRAR № 6/40

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Sadiq Rəcəb oğlu Rəcəbov 90 saylı Ağdaş, Samir Ramiq oğlu Əliyev 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.
2. Vüsal Ramiz oğlu Davudov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*08.01.2020-ci il*

# Din sahəsində tədqiqatlara mühüm töhfə

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan “Din araşdırmaları jurnalı”nın üçüncü sayı dərc edilib.




Baş redaktoru institutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov olan “Din araşdırmaları jurnalı”nın məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın növbəti sayında 19 məqalə və 1 kitab haqqında resenziya yer alıb. Din sosiologiyası, din psixologiyası, islam məzhəblər tarixi, hədis, təfsir, kəlam, tarix, fəlsəfə, islam hüququna dair qələmə alınan elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilib. Məlumat üçün bildirək ki, jurnalın bu sayından başlayaraq yeni - “Resenziya” bölməsinə yer ayrılıb. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Bildirək ki, akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə “Din araşdırmaları jurnalı”nın tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.

Jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb. İldə iki dəfə nəşr olunan “Din araşdırmaları jurnalı”nda bir çox alimin ilahiyyat, fəlsəfə, psixologiya, sosiologiya və digər elmlərə dair sanballı məqalələri çap olunur.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# İnnovativ “Mobil Ödəmə” xidməti artıq Azərbaycanda

Əlverişli xidmət “Azercell Telekom” tərəfindən PAŞA Bank və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə birgə əməkdaşlıqda təqdim edilib.




Yeni ilin başlanğıcı lider mobil operator “Azercell Telekom”un yeni rəqəmsal xidmətinin istifadəyə verilməsi ilə əlamətdar oldu. Bu da cəmiyyətin rəqəmsallaşması və maliyyə sahəsinin rəqəmsallığa ahəngdar keçidi istiqamətində əhəmiyyətli bir dönüş oldu. Belə ki, 8 yanvar 2020-ci il tarixdən etibarən “Azercell”in PAŞA Bank və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə birgə həyata keçirdiyi “Mobil Ödəmə” xidməti bütün fakturasız xətt (SimSim) abunəçiləri üçün mümkün olacaq.

Azərbaycan Respublikası Prezidentinin ölkədə “Rəqəmsal Ödənişlərin Genişləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiqi ilə bağlı sərəncamına uyğun olaraq hazırlanmış yeni xidmət abunəçilərə nağd puldan istifadə etmədən mobil telefon vasitəsilə ödəmə əməliyyatlarını həyata keçirmək imkanı yaradacaq. İstənilən GSM smartfonunda rahat və intuitiv istifadə fürsəti yaradan “Mobil Ödəmə” xidmətindən yararlanmaq mümkündür.

Xidmətin ilk mərhələsində “Azercell”in fakturasız xətt abunəçilərinin su, elektrik enerjisi, istilik kimi kommunal xidmətlər, eləcə də E-İmza, AzDataCom, Catel və Azeronline kimi rabitə xidmətləri üçün ödəniş etmək imkanı olacaq.

Fakturasız xətt (SimSim) abunəçiləri bu xidmətdən “Azercell”in “KABİNETİM” mobil əlavəsi vasitəsilə yararlana bilərlər. Bu xidməti aktivləşdirmək üçün abunəçi “KABİNETİM” əlavəsində qeydiyyatdan keçərkən müvafiq şərtləri qəbul etmək üçün elektron müqavilə imzalamalıdır.

Əlavə etmək lazımdır ki, xidmətdən nömrənin balansında 3 AZN-dən artıq məbləğ olduğu halda istifadə etmək mümkündür. Birdəfəlik maksimal ödəniş isə 50 AZN məbləğində müəyyən edilib. Minimal ödəniş həddi xidmət təchizatçısı tərəfindən müəyyən edilir. Eyni zamanda bir ay ərzində ödənişlərin ümumi həcmi 500 AZN-dən artıq olmamalıdır.

Qeyd edək ki, “Mobil Ödəmə” xidmətinin həyata keçirilməsi üçün mobil operator və bank arasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən təşkil edilən platforma yaxın gələcəkdə “Mobil Ödəmə” layihəsi çərçivəsində xidmətlərin sayını genişləndirərək xidmət spektrinin artırılması və digər servislərdən istifadə üçün şərait yaradacaq.

“Mobil Ödəmə” xidmətinin əhəmiyyətindən bəhs edərkən “Azercell Telekom”un prezidenti Vahid Mürsəliyev qeyd etmişdi: “Rəqəmsal həlləri daha da əlçatan etməyi hədəfləyərək biz bütün abunəçilərimizin gündəlik həyat prosesləri və biznes əməliyyatlarını asanlaşdırmaq, onları daha rahat və sürətli etmək məqsədilə innovativ məhsul çeşidlərini genişləndiririk. “Mobil Ödəmə” xidməti gələcəyin rəqəmsal cəmiyyətinin qurulması istiqamətində atılan ən vacib addımlardan biridir”.

“Rəqəmsal” bank konsepsiyasını inkişaf etdirən PAŞA Bank son bir neçə ildə müştərilərin biznes tələbatlarını qarşılamaq üçün onlarla birgə hazırlanmış yeni onlayn məhsul və xidmətləri fəal şəkildə bazarda tətbiq etməyə başlayıb. Ölkədə nağdsız ödənişlərin həcminin artmasına əhəmiyyətli töhfə verəcək bu xidmət müştərilər arasında yüksək tələbatlı maliyyə alətinə çevriləcək. Aparıcı banklardan biri olan PAŞA Bank müştərilərin mobil maliyyə xidmətlərinə tələbatını tam şəkildə qarşılayaraq, Azərbaycanda bu xidmətlərin inkişafına öz töhfəsini verəcək” deyə PAŞA Bankın İdarə Heyəti sədrinin müavini, baş kommersiya direktoru Cavid Quliyev bildirmişdir.

“Mobil Ödəmə” xidməti bank və mobil şəbəkələrin birləşməsindən istifadə edərək maliyyə xidmətləri təklif edən rəqəmsal yanaşmadır. Bu, istifadəçilərə ənənəvi prosedurlardan keçmədən bank əməliyyatlarını asanlıqla aparmağa və yaxın gələcəkdə nəqliyyat xidmətləri, satınalmalar, balansın artırılması və digər xidmətlər üçün ödəniş etməyə imkan yaradacaq.

***“Azərbaycan”***

# Beynəlxalq aləm

## Ukraynanın sərnişin təyyarəsi İranda qəzaya uğradı



Dünən səhər “Ukrayna Beynəlxalq Hava Yolları” şirkətinə məxsus Boeing 737-800 sərnişin təyyarəsi İranın paytaxtı Tehrandakı Xomeyni adına hava limanından havaya qalxandan təxminən iki dəqiqə sonra qəzaya uğramışdır. Bu barədə yerli KİV xəbər verir.

Təyyarə Tehrandan Kiyevə uçurmuş. Laynerdəki 167 sərnişin və heyətin 9 üzvü həlak olmuşdur. Faciənin texniki problemlər üzündən baş verdiyi bildirilir. Yerli telekanalların xəbərinə görə, təyyarənin mühərrikində yanğın baş vermiş, layneri alov bürümüşdür.

Ölənlər arasında 7 ölkənin vətəndaşları - 82 iranlı, 63 kanadalı, 11 ukraynalı, 10 isveçli, 4 əfqan, 3 alman və 3 britaniyalı var. Bu məlumatı Ukraynanın Xarici İşlər naziri Vadim Pristayko Twitterdəki mikrobloqunda açıqlamışdır.

## İran ABŞ-ın İraqdakı bazalarını vurdu



İran ABŞ-ın İraqdakı “Eyn əl-Əsəd” və Ərbil hava limanı rayonunda hərbi bazalarını raketlə vurmuşdur. Bu barədə İran İslam İnqilabı Qvardiyasına istinadən dövlət televiziyası xəbər verir.

Tehranın iddiasına görə, hücum nəticəsində “Eyn əl-Əsəd” bazası tamamilə dağılmışdır. Raket zərbəsi “bazanın həyati əhəmiyyətli hissəsinə” endirilmiş, xeyli pilotsuz təyyarə, helikopter və hərbi texnika məhv edilmişdir. ABŞ-ın regiondakı daha 104 obyekti İran Silahlı Qüvvələrinin hədəfindədir. İranın hücuma məruz qalacağı təqdirdə həmin obyektlərə cavab zərbəsi endiriləcək.

Pentaqon bildirmişdir ki, “Eyn əl-Əsəd” və “Ərbil” bazalarına 12-dən çox ballistik raket atılmışdır.

İslam İnqilabı Qvardiyası bu hücumu general Qasım Süleymaninin qətlinə görə qisas adlandırmışdır.

## Pedro Sançes İspaniyanın yeni Baş naziridir



İspaniya parlamentinin deputatları hökumətin sədri vəzifəsində Pedro Sançesin namizədliyini təsdiqləmişlər. Bu barədə “Pais” qəzeti xəbər verir.

Sançesin namizədliyi ikinci turda səsvermə zamanı cüzi üstünlüklə təsdiqlənmişdir. Onu 167 deputat dəstəkləmişdir. 165 parlamentar Sançesin əleyhinə səs vermiş, 18 deputat bitərəf qalmışdır.

İl ərzində İspaniyada iki dəfə seçkilər keçirilmiş, hökumət isə yazdan bəri səlahiyyətlərin icraçısı statusunda fəaliyyət göstərmişdir.

## ABŞ təyyarələri İran və İraq səmasında uçmayacaq




ABŞ Federal Mülki Aviasiya İdarəsi Amerika aviaşirkətlərinə İran və İraqın hava məkanında, habelə İran və Oman körfəzləri suları üzərində sərnişin və yük uçuşları həyata keçirməyi qadağan etmişdir. Bu barədə “Alman dalğası” radiostansiyası xəbər verir. İdarə hesab edir ki, Yaxın Şərqdə vəziyyətin gərginləşməsi ABŞ mülki aviasiyası üçün potensial təhlükə yaradır.

Bu qərar İranın ABŞ-ın İraqdakı hərbi bazalarına hücumundan sonra qəbul olunmuşdur. Qadağanın müddəti barədə məlumat verilmir.


# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: İmprovement of Veterinary Legislation**
**Reference No.** A1/CS-11

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

(i) *Component A - Support for sanitary and phytosanitary services,* which is structured into three subcomponents: support: *(i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*

(ii) *Component B - Agri-food value chain development.* The activities will be structured into two sub-components: *(i) İnvestment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*

(iii) *Component C - Financial services to agribusiness.*

(iv) *Component D - Project Management.*

**The general objective of the assignment** is to support the AFSA in (i) identifying the gaps in the current legal framework governing the veterinary sector; and (ii) improving the veterinary legislation, including primary (Veterinary Law) and secondary legislation.

The veterinary legal framework currently consists of Veterinary Law dated 2005 and secondary legislation (legal normative documents/rules) arising out of the primary legislation. With the view that the Veterinary law is outdated and a number of reforms have been made in the field of food safety and agrarian services, including veterinary services since its adoption, it does not currently cover many aspects, like regulation of private veterinary services, establishment of Veterinary Statutory Body with clear definition of its rights and responsibilities, provision of animal welfare, registration and identification of animals, state veterinary control over food and non-food products, regulation of import, export and transit of veterinary goods, therefore, there is a need to revise it with the view of legal framework of the Republic of Azerbaijan, particularly Food Safety Law to be soon adopted as well as in line with international requirements, including requirements of OIE, and with consideration of intention of the Republic of Azerbaijan to harmonize with EU approach.

**Scope of work and work methodology**

The assignment of Consultant will consist of 2 (two stages). Under the first assignment stage, Consultant shall (i) hold consultations with counterparts and stakeholders on the subject; (ii) review and carry out gap analysis of the existing Veterinary Law in line with international best practice; (iii) assess the options of (a) improving the Law, and (b) replacing the Law with the new one depending on the nature and extent of necessary revisions; (iii) draft the required chapters and missing parts in the Law or draft the new Law; (iv) review the existing list of the secondary legislation arising from the primary legislation and develop the list of the required secondary legislation.

Under the second assignment stage, Consultant shall (i) hold consultations with counterparts and stakeholders on the subject; (ii) review and carry out gap analysis of the existing secondary legislation arising from the primary legislation and develop the list of the required secondary legislation in line with international best practice (iii) revise and draft the required secondary legislation.

It is advisable that both primary and secondary legislation be accompanied and supported by Tables of Concordance to be in consistence and alignment with EU Regulation.

The improved veterinary legislation shall ensure a legal framework that will allow the AFSA to fulfil its functions in the area of veterinary services such as epidemic surveillance; early detection and reporting of animal diseases, including zoonosis; rapid response to and prevention and control of animal disease and food safety emergencies; animal product food safety; the welfare of animals; and the relevant certification of animals and animal products for export and also more effectively prevent, identify and mitigate biological threats within the country

The veterinary legislation shall be drafted in a manner that establishes clear rights, responsibilities and obligations (i.e. 'normative');

be unambiguous, with clear and consistent syntax and vocabulary;

be precise, accurate and consistent in the repeated use of the terminology;

contain no definitions that create any conflict or ambiguity;

include a clear statement of scope and objectives;

provide for the application of penalties and sanctions, either criminal or administrative, as appropriate to the situation.

**Required input and duration of the assignment**

It is estimated that a total input of sixty (60) work/days will be required, deployed in a few missions on site during the period February, 2020 - June, 2020. The first mission to Azerbaijan is scheduled for early February 2020. Timing for the subsequent missions will be discussed during contract negotiations and agreed during the first mission. Consultant will work closely with national legal expert recruited by ACIP Project. Consultant will work closely with the staff of AFSA, AFSI and ASA. Assignment will be mainly Baku-based. Possible home-based work may be up to 15% of the total input and will be determined during contractual negotiations.

**The shortlisting criteria are:**

- Master and higher university degree in veterinary medicine;
- Over ten years' experience in writing laws, regulations and normative acts in veterinary area;
- Previous experience in donor funded projects (WB and EU -funded projects) and understanding of its requirements is preferable
- Previous experience of working in the region/country would be an asset.
- Excellent written and spoken English;
- Sharing knowledge and experience, communicating ideas and managing information flow;
- Good inter-personal and communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* (“Consultant Guidelines”), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by January 23, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**25E, Nobel avenue, Baku White City Business Center, AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail:a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.


# Atəşkəs rejimi 21 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən katriclərin satın alınmasına dair 08.01.2020-ci il tarixdə keçirilən açıq tenderdə, göstərilən müddətdə ixtisas uyğunluğu üzrə tələblər pozulduğundan, iddiaçıların sayı 3(üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova əzizi

**KAMAL ƏHMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-nın sədri Hikmət Osmanova əzizi

**SƏNUBƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin kollektivi İdarə Heyətinin sədri Əsgər Ələkbərova əzizi

**KAMAL ƏLİ OĞLU ƏHMƏDZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova əzizi

**KAMAL ƏHMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Baş redaktorun birinci müavini**
**Amil NOVRUZOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6919**
**Sifariş 2**
**Qiymət 40 qəpik**